RAZILAŞDIRILMIŞDIR:

Azərbaycan Respublikasının Mərkəzi Bankının Baş direktoru

V. Qurbanov

«06» fevral 2026-ci il

TƏSDİQ EDİRƏM:

"PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri

N. İsmayılov

«22» yanvar 2026-ci il

Əmlakın yanğın və digər əlavə risklərdən sığortası Qaydaları

Bakı 2026

Ümumi anlayışlar

Əgər Qaydaların məzmununda başqa cür nəzərdə tutulmamışdırsa, bu Qaydalarda istifadə olunan termin və ifadələr aşağıdakı mənaları daşıyır:

Sığortalı – sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi;

Sığortaçı – sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs;

Faydalanan şəxs(lər) – qanunvericiliyə və ya sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişi verilməli olan şəxs;

Aktuari – qanunvericiliyə uyğun olaraq iqtisadi-riyazi hesablamalar aparmaqla sığorta haqlarının hesablanmasının əsaslarını müəyyən edən, həmçinin sığorta ehtiyatlarını hesablayan mütəxəssis;

Sığorta hadisəsi – qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

Sığorta məbləği – sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin qanunvericilik və ya sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;

Sığorta tələbi – sığorta hadisəsi baş verdikdə, sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığortaçıya öz vəzifələrini qanunvericiliyə və sığorta müqaviləsinə uyğun olaraq icra etməsi barədə müraciəti;

Sığorta ödənişi – sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə və ya sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

Sığorta obyekti – sığortalının, yaxud sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyi;

Sığorta predmeti – sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs, əmlak və ya hal;

Sığorta marağı – sığorta hadisəsinin baş verəcəyi təqdirdə şəxsin maliyyə itkisinə məruz qalması ehtimalı ilə şərtlənən və onun sığorta obyektini sığorta etdirmək hüququnun əsaslandığı mənafe;

Sığorta haqqı – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində qanunvericilik və ya sığorta müqaviləsi ilə nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği;

Sığorta riski və ya risk – sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlik;

Sığorta tarifi – sığorta haqqının hesablanması üçün aktuari hesablamalarına əsasən müəyyən edilən faiz dərəcəsi;

Sığorta müqaviləsi – sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşma;

Sığorta şəhadətnaməsi – sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, sığortaçı tərəfindən sığortalıya və (və ya) sığorta olunana verilən sənəd;

Sığorta müddəti – sığorta risklərinin təminatda hesab olunduğu müddət;

Azadolma məbləği – sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsi. Azadolma məbləği hər bir halda sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən sığorta ödənişi məbləğinə tətbiq olunur;

Gözləmə müddəti – sığorta hadisəsi nəticəsində həmin müddət ərzində yaranan itkilərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsi;

Əhəmiyyətli hallar – sığortaçının müqavilədən imtina etmək və ya onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən hallar;

Sığorta ərazisi – sığorta obyektinin sığortalanmış hesab olunduğu müəyyən ərazi hüdudları.

Xüsusi anlayışlar

Yanğın – müstəqil şəkildə onun yandırılması və saxlanması üçün nəzərdə tutulmuş yerlərdən kənara yayıla bilən atəşin ortaya çıxması. Yanğın nəticəsində yaranmamış atəşin vurduğu zərərlərə, həmçinin onların emalı və ya digər məqsədlərlə (məsələn: metalların qurudulması, bişirilməsi, hamarlanması, hisə verilməsi, oda verilməsi, isti ilə işlənməsi və ya əridilməsi üçün və s.) onların odla, isti ilə və ya digər termik təsirlə işlənməsi nəticəsində sığortalanmış əmlaka vurulmuş zərərlərə sığorta təminatı verilmir və onlar ödənilmir.

İldırım – ildırımın bilavasitə sığortalanmış əmlakı vurması.

Partlayış – qazların genişlənməyə meyli əsasında qısa müddət ərzində məhdud həcmdə iri kəmiyyətdə enerjinin sürətli gedən azadolma prosesi. Ancaq bu rezervuarın divarlarının rezervuarın daxilində və xaricində təzyiqin bərabərləşməsini mümkün edən şəkildə parçalanması baş verən partlayış rezervuarın (qazanın, boru kəmərinin və s.) partlaması hesab edilir. Bu cür rezervuarın daxilində sürətli gedən kimyəvi reaksiyaların səbəb olduğu partlayış baş verdikdə, rezervuara vurulmuş zərərlər onun divarları parçalanmadıqda da ödənillir. Rezervuarda vakuumla və ya qazın seyrəlməsi ilə vurulan zərərlərə sığorta təminatı verilmir.

Uçan aparatların düşməsi – pilot tərəfindən idarə olunan uçan obyektlərin, onların hissələrinin, daşınan yükün, baqajın sığortalanmış əmlakın üzərinə düşməsi, yanacağın onun üzərinə axması.

Tufan, qasırğa, şiddətli külək, burağan, fırtına – sığortalanmış əmlaka və yaxınlıqdakı digər obyektlərə zərər vuran, hava kütlələrinin böyük sürətlə (60 km/s-dan və 16,6 m/san.-dən artıq) yer dəyişməsi.

Leysan – zaman vahidində düşmüş yağıntının kəmiyyəti ilə xarakterizə olunan intensiv iri damcılı yağış.

Dolu – sığortalanmış əmlaka zərər vuran, müxtəlif ölçü və formada olan buz törəmələri şəklində atmosfer yağıntıları.

Daşqın, sel – qarın, buzlaqların əriməsi, böyük həcmdə yağıntıların düşməsi, dambaların və bəndlərin yuyulub aparılması ilə bağlı suyun qurunu basması, suyun normal axmasına mane olan buz yığını, küləyin əsməsi, çay yatağına dağ süxurlarının uçub tökülməsi ilə bağlı su hövzələrində suyun səviyyəsinin mövsümi və qəfil qalxması.

Zəlzələ – tektonik tavaların hərəkətinin, iri dağ məhsullarının uçmasının səbəb olduğu seysmik cəhətdən aktiv zonalar üçün xarakterik olan təbii fəlakət hadisəsi. Rixter cədvəli üzrə gücü 6 bal və ya daha yüksək olan zəlzələlər binalara zərər vurur.

Vulkan püskürməsi – vulkanın ağzından qazların, daşların, külün atılması və həmçinin ərimiş maqmanın axması ilə müşayiət olunan püskürmə.

Sunami – sualtı və sahilyanı zəlzələlər, vulkanik və digər tektonik proseslər nəticəsində yaranan yüksək (bir neçə on metrədək) okean dalğaları.

Uçqun, daş uçqunu – dağ süxurlarının qəfil uçması və ya dik yamaclardan daşların diyirlənməsi.

Çığ – dağların yamaclarından böyük qar kütlələrinin axması.

Sürüşmə – öz ağırlıq qüvvəsinin təsiri ilə torpaq kütlələrinin, dağ süxurlarının maili yer dəyişməsi.

Torpaq çökməsi, çökmə – torpağın sıxlaşması, qrunt sularının səviyyəsinin dəyişməsi, karst boşluqlarının, yeraltı faydalı qazıntı işləmələrinin çökməsi, torf yataqlarının yanması ilə bağlı torpağın çökməsi.

Qar ağırlığı – qarın təzyiqi həmin obyektin layihələndirilməsi zamanı nəzərdə tutulmuş hesablanmış yüklənməni aşdıqda, qar ağırlığı altında binaların, tikililərin zədələnməsi və ya dağılması.

Oğurluq – cinayətkar aşağıdakıları etdikdə, əmlakın gizli talanı:
- qapı və ya pəncərələri sındıraraq, kilidaçan və ya saxta açarlardan və ya digər texniki vasitələrdən istifadə edərək sığorta ərazisinə daxil olduqda. Əsl açarlar üzrə sərəncam vermək hüququ olmayan şəxslərin tapşırığı və ya xəbərdar olması ilə hazırlanmış açarlar saxta hesab edilir. Təkcə əmlakın sığorta ərazisindən itməsi saxta açarlardan istifadənin sübut olunması üçün kifayət deyildir;
- sığortalanmış binaların daxilində əmlakın saxlandığı yer kimi istifadə olunan predmetləri güc tətbiq etməklə oğurladıqda və ya onları kilidaçandan və ya saxta açarlardan və ya digər alətlərdən istifadə edərək açdıqda. Xidməti və ya təsərrüfat məqsədləri üçün sığortalı və onun yanında işləyən şəxslərlə yanaşı üçüncü şəxslər tərəfindən istifadə olunan binalarda bu cür zərərlər üzrə sığorta təminatı ancaq bu hal müqavilədə xüsusi olaraq göstərildikdə verilir;
- daha əvvəl adi yolla binaya daxil olduğu və bağlananadək gizli şəkildə qaldığı bağlı binalardan predmetləri götürdükdə və binanı tərk edərkən yuxarıda qeyd olunmuş vasitələrdən istifadə etdikdə;
- adi oğurluq edərkən aşkar edildikdə və oğurlanmış əmlakı mənimsəmək məqsədilə əldə olan vasitələrdən istifadə etdikdə.

Qarət (soyğunçuluq) – aşağıdakı hallarda sığortalanmış əmlakın açıq şəkildə talanması:
- sığortalanmış əmlakın çıxarılmasına qarşı onların müqavimətini qırmaq üçün sığortalıya və ya onun yanında işləyən şəxslərə qarşı zorakılıq tətbiq olunduqda;
- sağlamlıqlarına və ya həyatlarına təhdid səbəbilə sığortalı və ya onun yanında işləyən şəxslər sığortalanmış əmlakı sığorta ərazisi daxilində verdikdə və ya verilməsinə imkan verdikdə. Sığorta ərazisi bir neçə sığortalanmış bina və ya obyekt olduqda, sığortalı və ya onun yanında işləyən şəxslərin sağlamlıqlarına və ya həyatlarına təhdidin ortaya çıxdığı sığortalanmış bina daxilində əmlakın çıxarılması qarət hesab edilir;
- onların bu cür vəziyyəti özlərinin cinayətkar və kobud ehtiyatsız hərəkətlərinin nəticəsi olmadıqda və onların bu cür çıxarılmaya müqavimət göstərmələrinə imkan verilmədikdə, sığortalının və ya onun yanında işləyən şəxslərin çarəsiz vəziyyətdə olduqları zaman sığortalanmış əmlak onlardan alındıqda.

Əmlakın qəsdən zədələnməsi, məhv olunması, vandalizm – üçüncü şəxslərin sığortalanmış əmlakın zədələnməsinə, məhv olunmasına yönəlmiş qanuna zidd hərəkətləri.

Terrorizm – əmlaka zərər vurulması, əhalinin qorxudulması və ya hakimiyyət orqanlarının qərar qəbul etmələrinə təsir etmək yolu ilə siyasi və digər məqsədlərə nail olmağa yönəlmiş hüquqazidd hərəkətlərin (partlayış, yanğın, qəza və ya digər hərəkətlər) qəsdən törədilməsi.

Tətil – müəyyən məqsədlərə nail olmağa yönəlmiş işçilərin bir hissəsinin və ya hamısının təşkilatlanmış şəkildə işləməkdən imtina etməsi. Tətil sığortalının müəssisəsinin əmlakının korlanması və ya məhv edilməsi ilə bağlı zorakı hərəkətlərlə müşayiət oluna və ya sabotaja – sığortalanmış əmlakın zədələnməsinə və ya məhv olmasına səbəb olmuş, elan olunmuş tətil zamanı işçilər tərəfindən öz əmək vəzifələrinin şüurlu şəkildə icra olunmaması və ya qəsdən başdansovma icra olunmasına gətirib çıxara bilər.

Kütləvi iğtişaşlar – izdihamın insanlara və əmlaka qarşı yönəlmiş və zorakılıq və hakimiyyət nümayəndələrinə müqavimətlə müşayiət olunan hüquqazidd hərəkətləri. Qeyd olunmuş hadisələrlə bağlı qarət və soyğunçuluğun vurduğu zərərlər də sığortalanmış sayılır.

Su kəmərindən su, buxar və mayelərlə zərər vurulması – aşağıdakılarla sığortalanmış əmlakın zədələnməsi və ya məhv edilməsi:

- qəfildən və gözlənilmədən borulardan, qurğulardan, rezervuarlardan və saxlanma yerlərindən, o cümlədən su kəmərlərinin, kanalizasiya şəbəkələrinin, isitmə sistemlərinin və məhsul kəmərlərinin qəzası nəticəsində sızan su və digər mayelərlə (yağ, neft məhsulları, soyuducular);
- qazanlardan, qurğulardan, buxar borularından onun qəza ilə atılması ilə bağlı buxarla;
- qəfildən, gözlənilmədən, öz-özünə sprinkler sistemlərinin işə düşməsi nəticəsində yanğınsöndürmə sistemlərindən su ilə.

Nəqliyyat vasitəsinin vurması – yerüstü, hava və su nəqliyyat vasitələri ilə təmas nəticəsində sığortalanmış əmlakın bilavasitə məhv olması və ya zədələnməsi.

Binanın uçması – binaya pis xidmət göstərilməsi, pis inşaat torpağı, zəlzələ kimi səbəbləri istisna etməklə, binanın (tikilinin) qəfildən zədələnməsi və ya dağılması nəticəsində sığortalanmış əmlaka vurulmuş zərər.

Tüstü ilə zərərin vurulması – sobalardan, odluqdan, hisxanadan qəfildən, gözlənilmədən çıxmış tüstü (duda, his) ilə sığortalanmış əmlaka zərər vurulması.

Səs zərbəsi – səsdən sürətli təyyarənin səs maneəsini aşdıqda yaranan həddindən artıq təzyiq nəticəsində sığortalanmış əmlakın zədələnməsi və ya məhv olması halı.

İşin dayanması – şəhadətnamədə göstərilmiş sığorta hadisələri (yanğın, partlayış və s.) nəticəsində sığortalanmış əmlakın məhv olması, zədələnməsi nəticəsində işin dayanması.

Binaların, tikililərin şüşə elementləri – fasadların üzlənməsi, işıq qapaqlarının quraşdırılması, qapı və pəncərələrin şüşələnməsi, həmçinin interyerin tərtibatı (vitrajlar, güzgülər), reklam qurğularının hazırlanması üçün inşaatda istifadə olunan şüşə və şüşəyə bənzər materiallardan elementlər.

Kassada və bankda saxlanılan nağd pul – kassada seyfdə və ya sığortalının bankda saxlanılan nəğd pullar (xəzinədarlıq biletləri, banknotlar, qəpiklər), qiymətli kağızlar (səhmlər, istiqrazlar, veksellər və s.), külçə halında qiymətli metallar və digər qiymətli əşyalar.

Bina və tikili – bu Qaydaların məqsədləri üçün bina və/və ya tikili dedikdə sığorta müqaviləsi üzrə sığortalanmış daşınmaz əmlakın növündən və təyinatından asılı olaraq yaşayış sahələri, mənzillər, fərdi yaşayış evləri, qeyri-yaşayış sahələri və sair başa düşülür.

İncəsənət əsərləri, sərgilər – onların dəyərini təsdiq edən sənədlər olan incəsənət əsərləri, antikvar əşyalar, muzey və sərgi eksponatları.

İlkin (maksimal) zərər üzrə sığorta – zərərin tam həcmdə, lakin sığorta məbləğindən artıq olmamaqla ödənildiyi sistem. Qismən sığorta zamanı "mütənasib məsuliyyət" sistemindən fərqli olaraq zərərin ödənilməsinin "ilkin zərər" sistemi daha yüksək sığorta haqlarının ödənilməsi şərtilə daha geniş həcmdə təminat təklif edir.

Müəyyən edilmiş dəyər əsasında sığorta – əmlakın sığortalının bildirdiyi dəyər (bazar dəyəri) əsasında sığortası. Bu halda sığortaçı müəyyən edilmiş dəyərdən artıq olmamaqla, sığorta ödənişini zədələnmiş əmlakın bərpası (köhnəlmə nəzərə alınmadan) və ya məhv olmuş əmlaka analoji əmlakın alınması ilə bağlı dəymiş zərər həcmində ödəyir.

1. Sığorta sinifi

1.1. Sığorta obyektinə görə əmlak sığortasına aid olan əmlakın sığortası üzrə aşağıdakı sinif:

1.1.1. Sığorta şəhadətnaməsində qeyd olunan əmlakın, onun ərazisində və (və ya) içərisində yerləşən başqa əmlakla birlikdə, yaxud ayrılıqda yanğın və ya digər hadisələr nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı sığortalının əmlak mənafelərinə dəyən zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan əmlakın yanğından və digər risklərdən sığortası.

1.2. Sığorta obyektinə görə əmlak sığortasına aid olan qarışıq maliyyə risklərinin sığortası üzrə aşağıdakı sinif:

1.2.1. Sığortalının kommersiya fəaliyyətində sığorta hadisəsi nəticəsində baş verən fasilə ilə əlaqədar, onun əmlak mənafelərinə əldən çıxan fayda və əlavə xərclərlə bağlı dəyən zərərin əvəzinin tam və ya qismən ödənilməsi üçün sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan işin dayanması ilə bağlı risklərdən sığorta.

1.3. Sığorta obyektinə görə əmlak sığortasına aid olan mülki məsuliyyətin sığortası üzrə aşağıdakı sinif:

1.3.1. Sığorta hadisəsi nəticəsində üçüncü şəxslərə dəyən zərərin əvəzini ödəmək öhdəliyi ilə əlaqədar onun əmlak mənafelərinə dəyən zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan mülki məsuliyyətinin sığortası.

2. Sığorta predmeti

2.1. Bu Qaydalara əsasən sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu daşınar və daşınmaz əmlak sığorta predmeti hesab olunur.

Əlavə olaraq sığorta hadisəsi nəticəsində üçüncü şəxslərin həyatına və ya sağlamlığına xəsarət yetirilməsi, əmlakına zərər vurulması və iş fəaliyyətinin dayanması halı sığortanın predmeti ola bilər.

2.2. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, aşağıda sadalananlar sığorta predmeti hesab edilmir:

2.2.1. nəğd pul;

2.2.2. səhmlər, istiqrazlar və digər qiymətli kağızlar;

2.2.3. külçə halında qiymətli daşlar və çərçivəsiz qiymətli daşlar, xəzlər, xəz məmulatları;

2.2.4. əntiq əşyalar, incəsənət məmulatları, kolleksiyalar, sərgi nümunələri, nadir kitablar, orden və medallar, kolleksiya və yaradıcılıq işləri;

2.2.5. kənd təsərrüfatı bitkilərinin məhsulu, bitkilər, çoxillik bitkilər və heyvanlar;

2.2.6. möhürlər, maliyyə və mühasibat kitabları, planlar, sxem və çertyojlar, kompüter və analoji sistemlərin məlumatlarının texniki daşıyıcıları, xüsusən də maqnit lentləri və kasetləri, maqnit diskləri, yaddaş blokları və s.;

2.2.7. torpaq, o cümlədən münbit qat, yol örtüyü, dəmir yolları, kanallar, su quyuları, quyular;

2.2.8. inşaat və montaj obyektləri;

2.2.9. nəqliyyat vasitələri, hərəkət edən inşaat, kənd təsərrüfatı və ya digər maşınlar.

3. Sığorta obyekti

3.1. Bu Qaydalara əsasən sığorta obyekti sığortalının sığorta predmetinə sahibliyi, ondan istifadəsi və (və ya) ona sərəncam verməsi ilə bağlı əmlak mənafeyidir.

3.2. Əlavə olaraq sığorta hadisəsi nəticəsində digər fiziki şəxslərin sağlamlığına xəsarət yetirməsi və ya fiziki şəxslərin əmlakına, həmçinin hüquqi şəxslərə vurduğu zərərin əvəzinin ödənilməsi, iş fəaliyyətinin dayanması ilə bağlı əmlak mənafeləri sığorta obyekti ola bilər.

4. Sığorta məbləği

4.1. Sığorta məbləği sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin son həddidir.

4.2. Sığorta məbləği əmlakın sığorta (həqiqi) dəyəri çərçivəsində müəyyən edilir. Bu halda həqiqi dəyər aşağıdakı kimi müəyyən edilir:

4.2.1. avadanlıq, maşınlar, inventarlar, ev əşyaları və şəxsi əşyalar üçün – predmetə tam analoji predmetin əldə edilməsi üçün tələb olunan məbləğdən çıxış edərək;

4.2.2. binalar və tikililər üçün – binanın və ya tikilinin köhnəlməsini və istismar-texniki vəziyyətini nəzərə alaraq, həmin yerdə analoji binanın inşasının dəyəri;

4.2.3. sığortalı tərəfindən istehsal olunan mallar (həm hazır, həm də hazır olmayan) üçün – onların satış qiymətindən artıq olmamaqla, predmetlərin təkrar istehsalı üçün tələb olunan istehsalat xərcləri;

4.2.4. sığortalının ticarət etdiyi malları və aldığı xammal üçün – sığorta hadisəsi tarixində satıla biləcəkləri qiymətlərdən yüksək olmamaqla, onların təkrar satın alınması qiymətləri.
4.3. Əmlakın sığortası üzrə müqavilədə müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında) sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir.
4.4. Sığorta müqaviləsində göstərilmiş sığorta məbləği sığorta dəyərindən artıq olduqda, sığorta məbləğinin sığorta dəyərindən artıq olduğu hissə üçün müqavilə etibarsızdır.
4.5. Sığorta ödənişi verildikdən sonra sığorta məbləği ödənilmiş məbləğ həcmində azalır. Sığortalı əlavə sığorta haqqı müqabilində ilkin sığorta məbləğlərini bərpa eləyə bilər.

5. Sığorta riskləri

5.1. Bu Qaydalara əsasən bağlanmış sığorta müqaviləsi üzrə sığortaçı sığortalıya aşağıdakı "Yanğın" standard risklər nəticəsində baş vermiş sığorta hadisəsi üzrə əmlakın zədələnməsi və ya məhv olması hadisəsinə sığorta təminatı verir:

5.1.1. **"Yanğın" standart risklər siyahısına aşağıdakılar daxildir:**

a) yanğın, ildırım, partlayış və bunlarla əlaqədar əmələ gələn tüstü, buxar, yaxud istilik nəticəsində əmlakın zərər çəkməsi və ya məhv olması;
b) zərərin qarşısının alınması və ya təsirinin azaldılması üzrə zəruri və məqsədəuyğun şəkildə çəkilmiş xərclər (yanğının söndürülməsi, yayılmasının qarşısının alınması, əmlakın digər üsulla xilas edilməsi);
c) ərazinin təmizlənməsi xərcləri, sığortalanmış əmlakın qaydaya salınması (əgər sığorta müqaviləsi ilə başqa hal nəzədə tutulmamışdırsa, bu təminat sığorta məbləğinin 10%-i həcmindədir və həmin məbləğ sığorta müqaviləsində göstərilən sığorta məbləğinin tərkib hissəsidir).

5.1.1.1. Sığorta müqaviləsində xüsusi olaraq qeyd olunmayıbsa, aşağıda sadalananlara risklərin 5.1.1-ci maddəsi üzrə təminat verilmir:
a) təzyiq altında işləyən buxar qazan avadanlığı və qurğuların partlaması nəticəsində dəyən zərər;
b) üçüncü şəxslərin qanuna zidd əməlləri və digər risklər nəticəsində vurulmuş zərər;
c) sığorta hadisəsinin baş verməsi nəticəsində yaranmış olan dolayı itkilər (məsələn, əldə çıxmış mənfəət).

5.2. Tərəflər arasında razılıq əsasında aşağıdakı risklər nəticəsində dəymiş zərərə görə sığorta şəhadətnaməsində göstərilməklə sığortaçı tərəfindən əlavə təminat verilə bilər:

5.2.1. **"Təbii fəlakətlər" (Qeyd-şərt 1)**

Tufan, qasırğa, burağan, fırtına, leysan, dolu, daşqın, sel, zəlzələ, vulkan püskürməsi, sunami, uçqun, sürüşmə, daş uçqunu, qruntun çökməsi, qar ağırlığı.

5.2.2. **"Üçüncü şəxslərin qanuna zidd əməlləri"**

Tərəflərin əlavə razılığına əsasən sığorta təminatının genişləndirildikdə və üçüncü şəxslərin qanuna zidd əməlləri riski təminata daxil edildikdə, sığorta müqaviləsində göstərilmiş aşağıdakı hadisələr nəticəsində əmlakın zədələnməsi, oğurlanması, məhv edilməsi nəticəsində dəymiş zərərə sığorta təminatı verilir:
5.2.2.1. oğurluq, qarət (Qeyd-şərt 2)
5.2.2.2. üçüncü şəxslər tərəfindən əmlakın qəsdən məhv edilməsi və ya zədələnməsi (Qeyd-şərt 3)
5.2.2.3. kütləvi iğtişaşlar (Qeyd-şərt 4)

5.2.3. **"Digər risklər"**

Tərəflərin əlavə razılığına əsasən sığorta müqaviləsinə daxil edilmiş aşağıdakı risklər nəticəsində əmlakın zədələnməsi, məhv edilməsi nəticəsində dəymiş zərərə təminat verilir:
5.2.3.1. su borularından axan suyun, buxarın və mayelərin vurduğu zərər (Qeyd-şərt 5)
5.2.3.2. nəqliyyat vasitələrinin vurması (Qeyd-şərt 6)
5.2.3.3. sığorta hadisəsi nəticəsində binanın uçması (Qeyd-şərt 7)
5.2.3.4. tüstü ilə zərərin vurulması (Qeyd-şərt 8)
5.2.3.5. səs zərbəsi (Qeyd-şərt 9)
5.2.3.6. işin dayanması (Qeyd-şərt 10)
5.2.3.7. üçüncü şəxslərə qarşı mülki məsuliyyət (Qeyd-şərt 11)
5.2.3.8. tullantıların təmizlənməsi (Qeyd-şərt 12)
5.2.3.9 buxar qazanlarının, qaz xətlərinin, maşınların, aparatların və digər analoji qurğuların partlaması (Qeyd-şərt 13)

5.3. "Əmlakın ayrı-ayrı növlərinin sığortası üzrə əlavə şərtlər"ə aşağıdakılar daxildir:
5.3.1. binaların şüşə elementlərinin sığortası (Qeyd-şərt 14)
5.3.2. kassadakı nağd pul (Qeyd-şərt 15)
5.3.3 incəsənət əsərlərinin, sərgilərin sığortasının əlavə şərtləri (Qeyd-şərt 16)
5.3.4. dondurucu kameralardakı əmlakın sığortası (Qeyd-şərt 17)

5.4. "Sığorta təminatının əlavə şərtləri"
5.4.1. ilkin (maksimal) zərər üzrə sığorta (Qeyd-şərt 18)
5.4.2. bildirilmiş dəyər üzrə sığorta (Qeyd-şərt 19)
5.4.3. indeksasiya olunmuş yeni dəyər üzrə sığorta (inflyasiya qeyd-şərti) (Qeyd-şərt 20)
5.4.4 yerüstü daşımalar (Qeyd-şərt 21)
5.4.5 gözlənilmədən baş vermiş hadisələr (Qeyd-şərt 22)

6. Ümumi istisnalar:
6.1. Sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa, aşağıda sadalananlar nəticəsində baş verən itki və ziyanlar sığortaçı tərəfindən ödənilmir:
6.1.1. terror aktı, istənilən növ müharibə, istənilən növ hərbi hərəkətlər, həmçinin manevrlər və ya digər hərbi tədbirlər, tətil, üsyan, iğtişaş və s. bu kimi hallar;
6.1.2. müsadirə, həbs, müvafiq səlahiyyətli orqanın sərəncamı ilə əmlakın məhv edilməsi və ya zədələnməsi;
6.1.3. istənilən formada nüvə enerjisinin təsiri;
6.1.4. sığortalının və ya faydalanan şəxsin, yaxud onların tapşırığı ilə digər şəxslərin qərəzli hərəkəti, qəsdi;
6.1.5. sığortalanmış predmetlərin öz-özünə alışması, qıcqırması, çürüməsi, tədricən xarab olma, daxili çatışmazlıqlar, gizli və istehsalat qüsurları, tikinti qüsuru, həşəratların və parazitlərin vurduğu ziyan, ətraf mühitin çirkləndirilməsi, təbii köhnəlmə, atmosferin rütubətli və ya quru olması, temperatur və ya rütubət dəyişikliyi, çəkinin itirilməsi, paslanma, çürümə, aşınma, rəngdə, quruluşda və iydə baş verən dəyişiklik və ya digər təbii xüsusiyyətləri;
6.1.6. mexaniki xarab olmalar, düzgün istifadə etməmə və digər buna oxşar hallar;
6.1.7. sığorta müqaviləsi bağlandığı zaman sığorta obyektində mövcud olan qüsurlar, zədələr, itkilər.

7. Sığorta müqaviləsi
7.1. Sığorta müqaviləsinin bağlanması
7.1.1. Sığorta müqaviləsi sığortalının yazılı ərizəsi əsasında bağlanır. Ərizə (sorğu blankı) sığorta müqaviləsinin ayrılmaz tərkib hissəsi və əsasını təşkil edir.
7.1.2. Sığorta müqaviləsi bağlanarkən sığortalı sığortaya qəbul edilən əmlaka dair riskin dərəcəsinin müəyyən edilməsi üçün əhəmiyyətli və ona məlum olan bütün hallar haqqında sığortaçıya məlumat verməlidir. Sığortalının ərizə formasında qeyd etdiyi hallar həmçinin əhəmiyyətli hallar hesab edilir.
7.1.3. Sığorta müqaviləsinin bağlanması faktı sığorta qaydaları əlavə edilməklə, sığortalıya verilən sığorta şəhadətnaməsi ilə təsdiq edilir.

7.2. Sığorta müqaviləsinin tərəfləri
7.2.1. **Sığortaçı**
7.2.1.1. Bu Qaydalara əsasən Sığortaçı "PAŞA Sığorta" ASC-dir.

7.2.2. **Sığortalı**
7.2.2.1. Bu Qaydalara əsasən Sığortalı sığorta obyektinə münasibətdə əmlak maraqları olan hər hansı bir fiziki və ya hüquqi şəxs hesab olunur.
7.2.2.2. Bu Qaydalar daxilində sığortalının hərəkətlərinə onun işçilərinin, rəsmi şəxslərinin, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyinə, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa, sığorta müqaviləsinə, vəkalətnaməyə (etibarnaməyə) və ya vəzifə öhdəliklərinə əsasən sığortalı adından çıxış etmək səlahiyyəti olan digər nümayəndələrinin hərəkətləri də aid edilir.

7.2.3. **Faydalanan şəxs**
7.2.3.1. Sığorta müqaviləsi hər hansı hüquqi və ya fiziki şəxsin – faydalanan şəxsin xeyrinə bağlana bilər.
7.2.3.2. Faydalanan şəxsin adı sığorta müqaviləsində göstərilməlidir.
7.2.3.3. Sığorta müqaviləsinin faydalanan şəxsin xeyrinə bağlanması sığortalını müqaviləyə əsasən vəzifə və öhdəliklərindən azad etmir.

7.2.3.4. Bu Qaydalar və sığorta müqaviləsi ilə sığortalıya aid edilən bütün müddəalar sığortadan faydalanmaq niyyətində olan faydalanan şəxsə də eyni həcmdə aid edilir.

8. Sığorta haqqı

8.1. Sığorta haqqı sığorta tariflərinə əsasən hesablanır.
8.2. Sığorta haqqı bir dəfəyə ödənilir və ya tərəflərin razılığına əsasən hissə-hissə ödənilə bilər.
8.3. Sığorta haqqının ödənildiyi gün pul vəsaitinin sığortaçının bank hesabına daxil olduğu gün hesab olunur.
8.4. Müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra qüvvəyə minir.
8.5. Sığorta haqqı və ya onun növbəti hissəsi sığorta müqaviləsində nəzərdə tutulmuş müddətədək ödənilmədikdə və ya sığorta müqaviləsində nəzərdə tutulduğundan daha az məbləğdə ödənildikdə:
8.5.1. bu halda sığortaçı onun ödənilməsi üçün bu Qaydaların 8.5.2-ci maddəsinin tələbini nəzərə alaraq, yazılı surətdə 15 günədək əlavə müddət müəyyən edə bilər.
8.5.2. hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.
8.6. Sığortalı sığorta haqqını və ya onun növbəti hissəsini sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə ödəmədikdə, sığortaçı sığorta müqaviləsinə xitam verə bilər və ya birtərəfli qaydada müqavilənin icrasından imtina edə bilər.

9. Sığorta ərazisi

9.1. Yalnız sığorta şəhadətnaməsində qeyd olunmuş ərazi hüdudlarında baş verən sığorta hadisələri təminatda hesab olunur.
9.2. Sığortalanmış daşınar əmlak Sığortaçı ilə razılaşdırılmadan sığorta ərazisindən çıxarıldıqda sığorta təminatı dayandırılır.

10. Sığorta təminatının müddətinin başlanması və sonu

10.1. Sığorta təminatının müddəti, sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsi halında, sığorta müqaviləsinin bağlandığı gün saat iyirmi dörddən başlanır və sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat iyirmi dörddə başa çatır.

11. Azadolma məbləği və/və ya gözləmə müddəti

11.1. Sığorta müqaviləsində şərtli və ya şərtsiz azadolma məbləği, həmçinin gözləmə müddəti sığortalı ilə sığortaçı arasındakı razılığa əsasən müəyyən oluna bilər.
11.2. Şərtli azadolma məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda və ya sığorta müqaviləsində razılaşdırılmış hər hansı digər halın baş verməsi şərtilə zərər məbləğindən azadolma məbləği çıxılmır.
11.3. Şərtsiz azadolma məbləği nəzərdə tutulduqda, həmin məbləğ hər bir halda zərər məbləğindən çıxılır.
11.4. Şərtli gözləmə müddəti müəyyən edildikdə, sığorta hadisəsinin nəticələrinin həmin müddətə bərabər və ya ondan artıq müddətdə davam etməsi şərti ilə sığorta tələbi və ya sığorta ödənişi sığorta hadisəsinin baş verməsindən keçən həmin müddət qədər vaxt ərzində yaranan itkilərə də şamil edilir.
11.5. Sığorta müqaviləsində şərtsiz gözləmə müddəti müəyyən edildikdə, sığorta tələbi və ya sığorta ödənişi sığorta hadisəsinin baş verməsindən keçən həmin müddət qədər vaxt ərzində yaranan itkilərə şamil edilmir.
11.6. Sığorta müqaviləsi qüvvədə olduğu müddət ərzində bir neçə sığorta hadisəsi baş verdikdə, azadolma məbləği və/və ya gözləmə müddəti hər bir hadisə üzrə tətbiq olunur.

12. Riskin dərəcəsinin dəyişməsi

12.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortalı sığorta müqaviləsi bağlanan zaman sığortaçıya bildirdiyi əhəmiyyətli halların dəyişilməsi, həmçinin sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən və ona məlum olan bütün digər hallar barədə sığortaçıya dərhal məlumat verməlidir.
12.2. Sığortaçı sığorta riskinin artmasına təsir edən hallar barədə məlumatı əldə etdikdən sonra aşağıda göstərilən hərəkətləri etmək hüququna malikdir:
12.2.1. sığorta müqaviləsinin şərtlərini və müddəalarını dəyişmək;
12.2.2. əlavə sığorta haqqının ödənilməsini tələb etmək
12.2.3. belə dəyişikliklərin baş verdiyi tarixdən sığorta müqaviləsinə xitam vermək.

13. Təhlükəsizlik normalarının pozulması

13.1. Sığortaçı sığortalının qanunların və ya digər normativ aktların müəyyən etdiyi yanğın əleyhinə təhlükəsizlik, binaların və avadanlığın mühafizəsi, işlərin icra üzrə təhlükəsizlik qaydaları və normalarını və ya digər analoji normaları pozmasının səbəb olduğu sığorta hadisələri üzrə sığorta ödənişi verməkdən imtina edə bilər.

13.2. Sığortaçı səbəbi yalnız təhlükəsizlik normalarının pozulması olan sığorta hadisələri üzrə sığorta ödənişi verməkdən imtina edə bilər. Lakin bu normaların pozulması sığorta hadisəsinin baş vermə səbəbləri ilə bağlılığı olmadıqda sığorta ödənişi verilir.

14. Şərikli Sığorta

14.1. Şərikli sığorta bir neçə sığortaçının aralarında bağladıqları müqaviləyə müvafiq olaraq, sığorta ödənişi üzrə öhdəlikləri bölüşdürməklə sığorta müqaviləsi ilə müəyyən edilmiş sığorta risklərini eyni zamanda sığortalamaları ilə bağlı fəaliyyət və bununla əlaqədar yaranan münasibətlərdir.

14.2. Sığorta obyekti bir müqavilə ilə bir neçə sığortaçı tərəfindən sığortalana bilər. Bu müqavilədə hər bir sığortaçının razılaşdırılmış paylar əsasında hüquq və vəzifələrini müəyyən edən şərtlər olmalıdır.

14.3. Sığortalı qarşısında öhdəliyi öz payı miqdarında olmaqla şərikli sığortaçılardan biri sığortalı ilə münasibətdə bütün şərikləri təmsil edə bilər.

14.4. Müvafiq sığorta növü üzrə fəaliyyət göstərməyə icazəsi olmayan sığortaçı şərikli sığortada iştirak edə bilməz.

15. Sığorta müqaviləsinə əlavə və dəyişikliklərin edilməsi

15.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortalı və sığortaçı müqavilənin müəyyən şərtlərinin dəyişdirilməsi, həmçinin ona müəyyən əlavələr edilməsi barədə razılığa gələ bilərlər.

16. Sığorta müqaviləsinə xitam verilməsi

16.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

16.1.1. sığortaçı müqavilə üzrə sığortalı qarşısında öhdəliklərini tam həcmdə icra etdikdə;

16.1.2. sığortalı sığorta haqlarını müqavilə ilə müəyyən olunmuş müddətdə ödəmədikdə;

16.1.3. sığorta müqaviləsinin etibarsız hesab olunması haqqında məhkəmə tərəfindən qərar qəbul edildikdə;

16.1.4. sığorta marağı artıq mövcud olmadıqda;

16.1.5. sığorta predmeti artıq mövcud olmadıqda;

16.1.6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan digər hallarda.

16.2. Sığorta müqaviləsinə sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilə bilər.

16.3. Bu barədə tərəflər bir-birini qanunla müəyyən edilən hallar istisna olmaqla, azı 30 (otuz) gün əvvəl yazılı surətdə xəbərdar etməlidirlər.

16.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri

16.4.1. Sığorta müqaviləsinə sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır.

16.4.2. Sığorta müqaviləsinə sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərcləri çıxılmaqla, müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını qaytarır.

16.4.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı sığortalıya qaytarılmır.

16.4.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu maddənin 16.4.1-ci və 16.4.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

16.4.5. Sığorta müqaviləsi məhkəmə qərarı əsasında (sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa) xitam verilmiş hesab edildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını bu maddənin 16.4.3-cü və 16.4.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla,

sığortalının qanuni nümayəndəsinə qaytarır.

17. Tərəflərin hüquq və öhdəlikləri

17.1. Sığortalının aşağıdakı hüquqları var:

17.1.1. sığorta hadisəsi baş verdikdə, sığorta ödənişi almaq;

17.1.2. sığorta müqaviləsini hər hansı başqa şəxsin (hüquqi və ya fiziki) – faydalanan şəxsin xeyrinə bağlamaq;

17.1.3. sığorta müqaviləsinə əlavə və dəyişiklik etmək;

17.1.4. sığorta müqaviləsinə xitam verməк;

17.1.5. itirilmiş şəhadətnamənin yerinə dublikatını almaq;

17.1.6. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlar

17.2. Sığortalının aşağıdakı vəzifələri var:

17.2.1. sığorta hadisəsi baş verdikdə, bu barədə Qaydaların 18.1-ci maddəsində müəyyən edilmiş müddətdə sığortaçını xəbərdar etməli;

17.2.2. ziyanın qarşısının alınması və azaldılması üçün bütün zəruri tədbirləri görməli, sığorta haqqını vaxtında ödəməli;

17.2.3. sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməli, riskin dərəcəsinin sonradan dəyişilməsi barədə sığortaçıya məlumat verməli;

17.2.4. sığortalanmış obyektə dair qüvvədə olan digər sığorta müqavilələri barədə sığortaçıya məlumat verməli;

17.2.5. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələr.

17.3. Sığortaçının aşağıdakı hüquqları var:

17.3.1. sığortalının bildirdiyi məlumatların düzgünlüyünü yoxlamaq;

17.3.2. sığortalanmış riskin dərəcəsi artdıqda, sığortalıya sığorta müqaviləsinin şərtlərinin dəyişdirilməsini, o cümlədən sığorta riskinin artması nisbətində əlavə sığorta haqqının ödənilməsini təklif etmək və ya sığortalını xəbərdar etdikdən sonra sığorta müqaviləsinə xitam verməк;

17.3.3. sığortalanan predmetə baxış keçirmək, fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla onu qiymətləndirmək, lazım gəldikdə isə onun həqiqi dəyərini müəyyən etmək məqsədi ilə sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla müstəqil ekspert təyin etmək;

17.3.4. sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları sığortalıdan tələb etmək;

17.3.5. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlar.

17.4. Sığortaçının aşağıdakı vəzifələri var:

17.4.1. sığortalını sığorta qaydaları ilə tanış etməli;

17.4.2. sığorta hadisəsi baş verdikdə, bütün zəruri sənədləri aldıqdan sonra sığorta ödənişini bu Qaydaların 19.5-ci maddəsində müəyyən edilmiş müddətdə verməli;

17.4.3. qanunvericiliklə nəzərdə tutulmuş hallardan başqa, sığortalı şəxsin əmlak vəziyyəti, o cümlədən kommersiya sirri olan məlumatları yaymamaq;

17.4.4. sığorta hadisəsi hesab edilə bilən, qanunvericiliyə uyğun olaraq araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədin alınması üçün yazılı sorğu vermək;

17.4.5. sığortalıya sığorta hadisəsi hesab edilə bilən halın baş verdiyi zaman necə hərəkət etməyi, Sığortaçının sığorta ödənişindən imtina etməsinin qanuni əsaslarını əks etdirən, hamı tərəfindən asanlıqla başa düşülən üslubda tərtib edilmiş yaddaş vərəqi verməli;

17.4.6. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələr.

18. Sığorta hadisəsi baş verdikdə, sığortalının öhdəlikləri:

18.1. sığorta hadisəsinin baş verməsi barədə sığortalı, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir;

18.1.1. zərərin qarşısının alınması və ya təsirinin azaldılması və zərər vurulmuş əmlakın xilas edilməsi üçün bütün mümkün tədbirləri görməli və belə tədbirlərin görülməsi zamanı sığortaçıdan aldığı bütün təlimatlara əməl etməlidir;
18.1.2. sığortaçının və ya onun nümayəndələrinin zərər dəymiş əmlaka baxışın keçirilməsində və ya tədqiq edilməsində, vurulmuş zərərin səbəb və həcminin müəyyən edilməsində, zərərin təsirinin azaldılması və zərər vurulmuş əmlakın xilas edilməsi tədbirlərində iştirakını təmin etməli;
18.1.3. sığortaçının tələbi ilə sığortalanmış əmlakın məhv olması və ya vurulmuş zərərin həcmi və səbəblərini müəyyənləşdirmək üçün zəruri bütün məlumat və sənədləri sığortaçıya təqdim etməli;
18.1.4. əmlak sığortası müqaviləsi üzrə sığortalı aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:
18.1.4.1. zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;
18.1.4.2. sığortaçı sığorta hadisəsi barədə bu Qaydalarda nəzərdə tutulmuş müddətdə məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;
18.1.4.3. digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.
18.1.5. Sığortalı tərəfindən yuxarıda göstərilmiş hər hansı öhdəliyin icra olunmaması sığorta müqaviləsinin əhəmiyyətli şəkildə pozulması hesab edilir və sığortaçını sığorta ödənişini vermək öhdəliyindən azad edir.

19. Zərərin müəyyən edilməsi və sığorta ödənişinin verilməsi

19.1. Sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin, yaxud onların nümayəndəsinin təqdim etdiyi sığorta tələbi əsasında sığortaçı müəyyən edir.
19.2. Sığortaçı dəymiş zərəri müxtəlif üsullarla, o cümlədən zərər dəymiş predmetin və ya hadisə yerinin fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, foto və video çəkilişlər aparmaqla, bilavasitə özü və ya sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs vasitəsilə qiymətləndirir.
19.3. Sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə, zərərin miqdarının qiymətləndirilməsi sığorta qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, təyin olunan müstəqil ekspert tərəfindən aparılır.
19.4. Sığorta hadisəsinin araşdırılması və zərərin qiymətləndirilməsi üçün təyin olunan müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.
19.5. Sığorta ödənişi sığortaçı zərər faktını, onun səbəblərini və zərərin həcmini təsdiq edən bütün zəruri sənədləri aidiyyatı üzrə səlahiyyətli orqanlardan aldıqdan sonra 7 iş günü ərzində verilməlidir.
19.5.1. Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlər aşağıdakılardır. Tələb olunmuş sənədlərin təqdim olunmaması sığortaçıya zərəri ödəməmək hüququ verir.
19.5.1.1. Sığorta ödənişinin verilməsi üçün hüquqi şəxslərdən tələb olunan sənədlər:
- sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə sığortaçıya ünvanladığı sığorta tələbi (ərizə, müraciət);
- Zərər dəymiş sığorta predmetinə mülkiyyət hüququnu və ya istifadə hüququnu təsdiq edən sənəd, əmlakın müəssisə balansında olmasına dair arayış, predmetin əsas vəsaitlərə aid inventar vərəqəsi;
- İş qaydalarının pozulmasını təsdiq etmək üçün komissiyanın yaradılması barədə əmr (zərərin iş qaydalarının pozulması nəticəsində yarandığı hallarda tələb olunur);
- Texnoloji pozuntuların araşdırılmasına dair akt (zərərin texnoloji pozuntular nəticəsində yarandığı hallarda tələb olunur);;
- Zərər dəymiş predmetin qüsur siyahısı;
- Zərərlərin bərpa edilməsi ilə bağlı işlərin görüldüyü və/və ya malların alındığı hallarda aşağıdakı sənədlər:
    - Təmir-bərpa işlərinin görülməsi və ya zərər dəymiş predmetin əvəzlənməsi üzrə xərclərin məcmu siyahısı;
    - Zərər dəymiş predmetin əvəzinə alınmış yeni əmlakın alğı-satqısına dair müqavilə;
    - Malın qaiməsi;

- İtirilmiş qurğunun satın alınması, qurulması və (və ya) bərpası üzrə faktiki xərcləri təsdiq edən hesab- fakturalar, ödəniş tapşırıqları.

19.5.1.2. Sığorta ödənişinin verilməsi üçün fiziki şəxslərdən tələb olunan sənədlər:

- sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə sığortaçıya ünvanladığı sığorta tələbi (ərizə, müraciət);
-
- Zərər dəymiş sığorta predmetinə mülkiyyət hüququnu və ya istifadə hüququnu təsdiq edən sənəd;
- Zərər dəymiş predmetin qüsur siyahısı;
- Zərərlərin bərpa edilməsi ilə bağlı işlərin görüldüyü və/və ya malların alındığı hallarda aşağıdakı sənədlər:
  - Təmir-bərpa işlərinin görülməsi və ya zərər dəymiş predmetin əvəzlənməsi üzrə xərclərin məcmu siyahısı;
  - Zərər dəymiş predmetin əvəzinə alınmış yeni əmlakın alğı-satqısına dair müqavilə;
  - Malın qaiməsi.

19.6. Tam məhv olma – əmlakın tam həqiqi məhvi (biryolluq itkisi) və ya bərpa xərclərinin sığortalanmış obyektin həqiqi dəyərinin 100%-dən artıq olması ilə əlaqədar sığortalanmış obyektin bərpasının iqtisadi cəhətdən məqsədəuyğun olmadığı tam konstruktiv məhvi zamanı baş vermiş sayılır.

19.7. Zərərin həcmi aşağıdakı kimi müəyyən edilir:

19.7.1. əmlak tam məhv olduqda – köhnəlmə nəzərə alınmaqla sığorta hadisəsi baş verdiyi tarixə onun həqiqi dəyərinin həcmində, lakin sığorta məbləğindən artıq olmamaqla.

19.7.2. əmlak qismən zədələndikdə – bərpa xərcləri həcmində.

19.8. Bərpa xərclərinə aşağıdakılar daxildir:

19.8.1. təmir üçün material və ehtiyat hissələri xərcləri;

19.8.2. təmir üzrə işlərin ödənilməsi xərcləri;

19.8.3. materialların təmir yerinə çatdırılması və sığortalanmış predmetlərin bilavasitə sığorta hadisəsi baş verməmişdən əvvəl olduğu vəziyyətə bərpa etmək üçün tələb olunan digər xərclər.

19.9. Ancaq xüsusi olaraq sığorta müqaviləsi ilə nəzərdə tutulduqda, aşağıdakılara təminat verilir:

19.9.1. istirahət və bayram günlərində, gecə və işdən sonrakı vaxtda təmir üzrə icra olunan təcili işlərin ödənilməsi üzrə əlavə xərclər;

19.9.2. təcili çatdırılmanın ödənilməsi üzrə əlavə xərclər;

19.9.3. təyyarə ilə daşınmanın ödənilməsi üzrə əlavə xərclər.

19.10. Bərpa xərclərinə aşağıdakılar daxil deyil:

19.10.1. sığortalanmış obyektin dəyişdirilməsi və ya yaxşılaşdırılmasının səbəb olduğu əlavə xərclər;

19.10.2. müvəqqəti təmir və ya köməkçi təmir və ya bərpanın səbəb olduğu əlavə xərclər;

19.10.3. sığorta məbləği müəyyən edilərkən nəzərə alınmamış və sığorta müqaviləsi bağlanarkən ona daxil edilməmiş xərclər;

19.10.4. tələb olunandan artıq çəkilmiş digər xərclər.

19.11. Təmir zamanı əvəzlənən hissələrin və detalların köhnəlmə dəyərləri bərpa xərclərinin məbləğindən çıxılır. Çıxılan məbləğ həmin hissələrin sığorta hadisəsi baş verdiyi gün həqiqi dəyərindən və yenisinin dəyərindən çıxış edərək hesablanır.

19.12. Sığortalanmış əmlakın təhlükəsiz istismarına təhlükə yaratmadan zədələnmiş hissə və ya predmetlərin təmirinin mümkün olmasına baxmayaraq onlar əvəz edildikdə, sığortaçı sığortalıya bu hissə və ya predmetlərin təmirinin dəyərini, lakin sığorta məbləğindən artıq olmamaqla ödəyir.

19.13. Sığortlanmış əmlaka vurulan zərər üzrə xərclərin həcmi müəyyən olunduqdan sonra sığorta ödənişinin hesablanması aşağıdakı yollarla həyata keçirilir:

19.13.1. Qismən sığorta zamanı – sığorta ödənişi sığorta məbləğinin sığorta dəyərinə nisbətinə uyğun verilir;

19.13.2. İkili sığorta zamanı – sığorta hadisəsi zamanı eyni sığorta predmetinə sığortaçının təminat verdiyi risk üzrə hər hansı digər sığortaçı(lar) da təminat vermişdirsə, bu halda sığorta ödənişi hər bir sığortaçı arasında mütənasib olaraq bölünür;

19.13.3. Şərikli sığorta zamanı – sığorta ödənişi əmlakın hər bir sığortaçı tərəfindən sığortalandığı sığorta məbləğlərinin nisbətinə uyğun şəkildə bölünür;

19.13.4. Azadolma tətbiq olunarsa – sığorta ödənişi zərər məbləğindən azadolma məbləği çıxılmaqla verilir.

19.13.5. Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

19.13.6. Sığorta şəhadətnaməsi üzrə sığorta ödənişlərinin ümumi miqdarı sığorta məbləğini aşa bilməz.

19.14. Sığortalı zədələnmiş də olsa sığorta hadisəsindən sonra qalmış əmlakdan imtina etmirsə, əmlakın qalıq dəyəri sığorta ödənişi məbləğindən çıxılır. Lakin imtina edərsə, sığortaçı sığortalanmış əmlakın məhv olmasına görə müvafiq

ödəniş verdikdə və ya onun tikinti materiallarını/avadanlığını, ehtiyat hissələrini başqası ilə əvəz etdikdə sığortalının həmin əmlaka və yaxud tikinti materiallarını/avadanlıqlarına, ehtiyat hissələrinə olan hüquqları sığortaçıya keçir. Bütün qalıqlar sığortaçıya verilməlidir. Sığortalı həmin hüquqların sığortaçıya keçməsi üçün bütün zəruri tədbirləri görməyə borcludur. İtmiş əmlakın sonradan tapılması halında sığortaçı öz rəyinə əsasən əmlakı özündə saxlamaq və yaxud sığortalıya qaytarmaq hüququna malikdir. İkinci halda əmlaka görə alınmış sığorta ödənişi Sığortaçıya geri qaytarılmalıdır. Əgər əmlak korlanmış vəziyyətdə əldə olunarsa, sığortaçı sığortalıya həmin zərərlərin əvəzini ödəyir.
19.15. Sığortalı və ya faydalanan şəxs zərərin ödənişini üçüncü şəxslərdən aldıqda, sığortaçı ancaq sığorta şərtlərinə əsasən ödənilməli məbləğlə üçüncü şəxslərdən alınmış məbləğ arasındakı fərqi ödəyir. Sığortalı və ya faydalanan şəxs bu cür məbləğləri aldığı barədə sığortaçıya dərhal məlumat verməlidir.

20. Ödənişdən imtinanın əsasları

20.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:
20.1.1. sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda, habelə zərər dəymiş əmlakın ona təqdim edilməsi ilə bağlı bu qaydaların 18.1.4-cü maddəsinə riayət edilmədikdə;
20.1.2. qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;
20.1.3. müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, hadisənin baş verməsinin səbəbi təminata istisna hesab olunan halların nəticəsi olması;
20.1.4. sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı
20.1.5. sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməsi, o cümlədən bu qaydaların 18.1.4.1-ci maddəsində müəyyən edilmiş məqsədlər üçün zəruri tədbirlərin görülməsi halları istisna olmaqla, digər hallarda əmlakın hadisə yerindən kənarlaşdırılmasının sığortaçını hadisənin səbəblərini və ya zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi (bu hallarda sığortaçı zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olduqda belə, aşkar faktlarla sübut olunan həcmdə sığorta ödənişindən imtina edə bilməz);
20.1.6. bu qaydaların 20.2-ci maddəsi nəzərə alınmaqla, sığorta predmeti, sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;
20.1.7. sığortalı, sığorta olunan və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir;
20.1.8. baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;
20.1.9. sığorta hadisəsinin sığorta haqqı və ya onun hər hansı bir hissəsinin qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, bu Qaydaların 8.5.1-ci maddəsində nəzərdə tutulmuş halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra baş verməsi halında sığorta haqqı və ya onun müvafiq hissəsi ödənilməmiş olduqda;
20.1.10. bu Qaydalarda və qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.
20.2. Bu Qaydaların 17.2.3-ü maddəsində nəzərdə tutulmuş məlumatların yanlışlığı sığorta müqaviləsi bağlanarkən sığortaçıya məlum olduqda və ya sığortalı yanlış məlumatların verilməsində təqsirli olmadıqda, sığortaçı sığorta ödənişinin verilməsindən imtina üçün yanlış məlumatın verilməsi faktına əsaslana bilməz.

21. Subroqasiya hüququ

21.1. Subroqasiya hüququ sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş sığortaçının istifadə etmək hüququdur.
21.2. Sığortalının (faydalanan şəxsin) zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüquq əmlak sığortası üzrə sığorta ödənişini vermiş sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi

məbləğində keçir.

21.3. Sığortalı (faydalanan şəxs) sığorta ödənişini aldıqda, subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə sığortaçını təmin etməlidir.

21.4. Sığortalı (faydalanan şəxs) şəxs zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri sığortaçıya verməkdən imtina etdikdə, sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir və ya artıq həyata keçirilmiş sığorta ödənişinin qaytarılmasını tələb edə bilər.

21.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış sığortaçıya, həmçinin qanunvericiliyə əsasən dəyən zərərə görə sığortalı və ya faydalanan şəxs qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.

22. Tərəflərin məsuliyyəti

22.1. Bu Qaydaların şərtlərinin yerinə yetirilməməsinə yə ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

23. İş sirlərinin gizli saxlanılması

23.1. Sığortaçı sığortalıya aid öyrəndiyi və ya iş prosesində öyrənəcəyi iş sirlərini gizli saxlamadığı halda sığortalıya dəyən maddi və ya mənəvi zərərə görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

24. Mübahisələrin həlli qaydası

24.1. Bu Qaydalara əsasən bağlanmış sığorta müqaviləsindən irəli gələn bütün mübahisələr ilkin olaraq danışıqlar yolu ilə pretenziya qaydasında, tərəflər arasında razılığa gəlinmədiyi təqdirdə isə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məhkəmələr vasitəsilə həll edilir.

25. Qeyd-şərtlər

25.1. Tərəflərin razılığı ilə qüvvədə olan qanunvericiliyə zidd olmamaqla bu Qaydalara əlavə və dəyişikliklər edilməsi məqsədilə Qeyd-şərtlər yazıla bilər.

25.2. Sığorta müqaviləsində Qeyd-şərtlər üzrə sığorta təminatının genişləndirilməsi və ya daraldılması ilə bağlı fərqli şərtlər müəyyən oluna bilər. Bu cür şərtlər müqavilədə aydın, oxunaqlı və başa düşülən şəkildə əks olunmalıdır.

Qeyd-şərt 1

Əmlakın təbii fəlakətlərdən sığortasının əlavə şərtləri (Şərtlərin 5.2.1.-ci maddəsinə)

1. Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarına əsasən bağlanmış sığorta müqaviləsi və bu əlavə şərtlər üzrə Sığortaçı dövlət hidrometeoroloji orqanlarının təsdiq etdiyi və həm sığortalanmış əmlaka, həm də yaxınlıqda olan maddi obyektlərə dağıdıcı təsir göstərən aşağıdakı təbii fəlakətlər nəticəsində əmlakın zədələnməsi və ya məhvinə qarşı təminat verir:

1.1. fırtına, qasırğa, burağan, tayfun

1.2. leysan

1.3. dolu

1.4. sel, daşqın

1.5. zəlzələ, vulkan püskürməsi

1.6. sunami

1.7. uçqun, daş uçqunu, çığ, torpaq sürüşməsi

1.8. torpaq çökməsi, uçulma

1.9. qar ağırlığı

2. Zəlzələ nəticəsində dəymiş zərər ancaq o halda ödənilir ki, Sığortalı sığortalanmış bina və tikililərin layihələndirilməsi, tikintisi və istismarı zamanı həmin bina və tikililərin yerləşdiyi yerin seysmoloji şəraitinin lazımi şəkildə nəzərə alındığını sübuta yetirsin.

3. Səbəbi partlayış işləri, özül yerindən və ya karyerdən torpağın çıxarılması, boşluqların torpaqla doldurulması və ya torpaqla örtmə işlərinin aparılması və həmçinin bərk, maye və ya qaz halında olan faydalı qazıntıların çıxarılması və ya işlənməsi olan torpaq sürüşməsi, çökməsi və ya torpağın digər hərəkətinin nəticəsində dəymiş zərər ödənilmir.

4. Atmosferdəki təbii proseslərin səbəb olduğu fırtına, qasırğa, burağan nəticəsində zərər ancaq o halda ödənilir ki, zərər vurmuş küləyin sürəti 60 km/s-dan yüksək olsun. Küləyin sürəti müvafiq dövlət hidrometeoroloji qurumlarının arayışları ilə təsdiq olunur.

Sığortalanmış əmlaka açıq pəncərələrdən, qapılardan, təmir olunmamış dam örtüyündən və ya fırtına, qasırğa, burağan və ya tufan nəticəsində yaranmamış digər boşluqlardan daxil olmuş yağış, qar, dolu və ya palçığın vurduğu zərər ödənilmir.

5. Sığortalanmış binaların və tikililərin və ya onlardakı əmlakın zədələnməsinin və ya dağılmasının səbəblərindən biri onların köhnəlməsi, qismən dağılması və ya uzun müddətli istismarı nəticəsində zədələnməsi olduqda, Sığortaçı sığortalanmış binaların və tikililərin köhnəliyinin zərərin həcminə təsir etdiyi nisbətdə sığorta ödənişini verməkdən imtina edə bilər. Sığortalı tikililərin köhnəliyinin zərərin həcminə təsir etmədiyi sübuta yetirərsə, Sığortaçının sığorta ödənişi vermək öhdəliyi qüvvədə qalır.

6. Bu hal sığorta müqaviləsində xüsusi olaraq göstərilmədikdə, aşağıdakıların nəticəsində baş vermiş zərər ödənilmir:

6.1. vitrinlərin, şüşə divarların vitrajlarının və binaların şüşədən olan digər elementlərinin zədələnməsi və ya məhv olması (risk 5.3.1.-ci maddə ilə sığortalanır);

6.2. dirək, antenna, açıq elektrik naqilləri, reklam qurğuları, plakat lövhələri, qoruyucu günlüklər və ya vitrinlərin örtüləri və s. Kimi sığortalanmış binaların və tikililərin xarici tərəfində bərkidilmiş predmetlərin zədələnməsi və məhv olması (əmlak ayrıca siyahı ilə sığortaya qəbul edilir).

7. İnşaatı bitməmiş, onlardan birbaşa təyinatları üzrə istifadə edən şəxslər tərəfindən əsaslı təmir və ya digər səbəblərdən uzun müddət üçün boşaldılmış binalar və tikililər sığortaya qəbul edilmir. Sığortalanmış binaların və tikililərin əsaslı təmir və ya digər səbəblərdən 60 gündən artıq müddət üçün boşaldılması haqda Sığortalı dərhal Sığortaçıya məlumat verməlidir. Sığortaçı sığorta müqaviləsinin qüvvəsini bu müddət üçün dayandıra bilər.

8. Təbii fəlakətlər nəticəsində dəyən zərərlər üzrə sığorta təminatı bağlanmış əmlakın yanğından sığortası müqaviləsinə əlavə kimi verilir.

9. Sığorta müqaviləsində təbii fəlakətlərdən əlavə sığortaya münasibətdə başqa hal nəzərdə tutulmayıbsa, digər bütün hallarda yanğından və digər risklərdən sığortalı qaydaları tətbiq olunur.

Qeyd-şərt 2

Oğurluq və qarət riskindən əmlakın sığortasının əlavə şərtləri (Şərtlərin 5.2.2.1-ci maddəsi)

1. Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarına əsasən bağlanmış sığorta müqaviləsi və bu əlavə şərtlər üzrə Sığortaçı aşağıdakılar nəticəsində əmlakın zədələnməsi və ya məhvinə qarşı təminat verir:

1.1. oğurluq;

1.2. sığorta ərazisində qarət (quldur hücum);

1.3. sığorta ərazisinə və ya ərazisindən daşınma və həmçinin yuxarıda qeyd olunmuş hərəkətlərə cəhd zamanı qarət.

Yuxarıda qeyd olunmuş risklərdən hər hansı biri ancaq sığorta müqaviləsində xüsusi olaraq göstərildikdə, sığortalanmış hesab olunur.

2. Sığorta müqaviləsi baxımından oğurluq cinayətkar aşağıdakıları etdikdə baş vermiş sayılır:

2.1. qapı və pəncərələri sındıraraq, kilidaçandan və ya saxta açarlardan və ya digər texniki vasitələrdən istifadə edərək sığortalanmış binalara daxil olduqda. Əsl açarlara sərəncam vermək hüququ olmayan şəxslərin tapşırığı və ya xəbərdar olması ilə hazırlanmış açarlar saxta hesab edilir; təkcə əmlakın sığorta ərazisindən itməsi saxta açarlardan istifadənin sübut olunması üçün kifayət deyildir;

2.2. sığortalanmış binaların daxilində əmlakın saxlandığı yer kimi istifadə olunan predmetləri yardıqda və ya onları kilidaçandan və ya saxta açarlardan və ya digər alətlərdən istifadə edərək açdıqda; xidməti və ya təsərrüfat məqsədləri üçün Sığortalı və onun yanında işləyən şəxslərlə yanaşı üçüncü şəxslər tərəfindən istifadə olunan binalarda bu cür zərərlər üzrə sığorta təminatı ancaq bu hal müqavilədə xüsusi olaraq göstərildikdə verilir;

2.3. daha əvvəl adi yolla daxil olduğu və onlar bağlananadək gizli şəkildə qaldığı bağlı binalardan predmetləri götürdükdə və binanı tərk edərkən 2.1-ci maddədə qeyd olunmuş vasitələrdən istifadə etdikdə;

2.4. adi oğurluq edərkən aşkar edildikdə və oğurlanmış əmlakı mənimsəmək məqsədilə bu əlavə şərtlərin 2.1 və 2.2-ci maddələrində qeyd olunmuş vasitələrdən istifadə etdikdə.

3. Sığorta müqaviləsi baxımından qarət (soyğunçuluq) cinayətkar aşağıdakıları etdikdə baş vermiş sayılır:

3.1. sığortalanmış əmlakın çıxarılmasına qarşı onların müqavimətini qırmaq üçün Sığortalıya və ya onun yanında işləyən şəxslərə qarşı zorakılıq tətbiq olunduqda;

3.2. Sağlamlıqlarına və ya həyatlarına təhdit səbəbilə Sığortalı və ya onun yanında işləyən şəxslər sığortalanmış əmlakın sığorta ərazisi daxilində verdikdə və ya verilməsinə imkan verdikdə; sığorta ərazisi bir neçə sığortalanmış bina və ya obyekt olduqda, Sığortalı və ya onun yanında işləyən şəxslərin sağlamlıqlarına və ya həyatlarına təhdidin ortaya çıxdığı sığortalanmış bina daxilində əmlakın çıxarılması qarət hesab edilir;

3.3. onların bu cür vəziyyəti özlərinin cinayətkar hərəkətlərinin nəticəsi olmadıqda və onların bu cür çıxarılmaya müqavimət göstərmələrinə imkan vermədikdə, Sığortalının və ya onun yanında işləyən şəxslərin çarəsiz vəziyyətdə olduqları zaman sığortalanmış əmlak onlardan alındıqda.

Sığortalanmış əmlaka qayğının müvəqqəti tapşırıldığı Sığortalının ailə üzvü onun yanında işləyən şəxslərə bərabər tutulur.

4. Sığortalanmış əmlakın sığorta ərazisinə və ya yerindən daşınması zamanı qarət üzrə 3-cü maddədə göstərilmiş şərtlərə əlavə olaraq aşağıdakı şərtlər tətbiq olunur:

4.1. Sığortalının tapşırığı ilə bu cür daşınmanı həyata keçirən şəxslər Sığortalıya bərabər tutulur; lakin bu müddəa müqavilələrə əsasən Sığortalıya işləməyən yüklərin, qiymətli əşyaların və nəğd pulların peşəkar daşıyıcıları və ya inkassatorlar tərəfindən həyata keçirilən daşınmalara tətbiq olunmur;

4.2. bu əlavə şərtlərin 3.2.-ci maddəsində sadalanmış hallarda sığortalanmış əmlak təhdidin edildiyi yerdə götürüldükdə, qarət baş vermiş sayılır.

5. Aşağıdakıların nəticəsində dəymiş zərərə sığorta təminatı verilmir:

5.1. Sığortalı ilə birgə yaşayan və onunla birgə təsərrüfat aparan şəxslərin oğurluq və ya qarət əlamətləri daşıyan hərəkətləri;

5.2. Oğurluğun və ya qarətin həyata keçirilməsi və hazırlanması sığortalanmış binaların bu cür şəxslər üçün bağlı olduğu vaxt ərzində icrası istisna olunmaqla, Sığortalıya işləyən şəxslər qəsdən edilmiş hərəkətləri;

5.3. sığorta ərazisinə və ya ərazisindən daşınma zamanı qarət:

- daşınmalar sığorta müqaviləsi nəzərdə tutulduğundan daha artıq sayda nəqliyyat vasitələri ilə həyata keçirildikdə;

- qarət daşınmanın həyata keçirilməsinin tapşırıldığı şəxslər tərəfindən həyata keçirildikdə;

5.4. bu hadisələr oğurluğun, qarətin və ya onlara cəhdin nəticəsində baş verdikdə, yanğın, partlayış və ya su borularının suyu ilə zərərin vurulması;

5.5. qaydaların 6.1.1.-6.1.3-ci maddələrin müddəalarına uyğun olaraq hərbi hərəkətlərin, vətəndaş müharibəsinin və ya nüvə enerjisinin təsiri.

6. Qaydaların 2.3-ci maddəsində sadalanmış predmetlərlə yanaşı oğurluq və qarətdən sığorta aşağıdakılara da təminat vermir:

6.1. kassa aparatı və ona bənzər aparatlar – nəğd pullar onlardan çıxarılanadək;

6.2. içindəkilər də daxil olmaqla, qəpiklərin qəbulu üçün qurğu olan ticarət və ya xırdalama avtomatları.

7. Sığorta müqaviləsi ilə Sığortalıya işləyən şəxslərin şəxsi əşyalarının xüsusi sığortası nəzərdə tutulduqda, bu cür sığorta ancaq həmin şəxslərin adətən öz xidməti vəzifələrini icra edərkən istifadə etdikləri predmetlərə təminat verir. Sığorta Sığortalıya işləyən şəxslərə məxsus nəğd pullara, qiymətli kağızlara vı nəqliyyat vasitələrinə təminat vermir. Yuxarıda qeyd olunmuş əmlaka dair sığorta təminata ancaq həmin əmlaka dair digər sığorta müqavilələri bağlanmadıqda verilir.

8. Ancaq xüsusi olaraq sığorta müqaviləsində göstərildikdə, müəyyən edilmiş hədlər həcmində aşağıdakı xərclər ödənilir:

8.1. sığorta hadisəsindən sonra binaların zir-zibilinin yığışdırması və təmizlənməsi xərcləri;

8.2. sığorta hadisəsi nəticəsində sığorta müqaviləsinə əsasən sığorta ərazisi olan binalara, yerlərə vurulmuş zərərin aradan qaldırılması xərcləri;

8.3. sığorta ərazisinin bilavasitə yaxınlığında olan ayrıca duran reklam stendləri və ya vitrinləri;

8.4. kassa seyflərindən və zirehli otaqlardan başqa, sığorta hadisəsi nəticəsində açarları itmiş yerlərin kilidlərinin və ya açarlarının dəyişdirilməsi xərcləri.

9. Sığorta ancaq o əmlakın çıxarılmasına, zədələnməsinə və ya məhv olunmasına təminat verir ki, həmin əmlak ev yarmaqla oğurluq (bu əlavə şərtlərin 2-ci maddəsi) və ya qarət (bu əlavə şərtlərin 3-cü maddəsi) baş verdiyi anda sığorta ərazisində (bu əlavə şərtlərin 9.1-ci maddəsi) olsun.

Ancaq oğurluq və ya qarət edənin tələbi ilə həminsığorta ərazisinin xaricindən sığorta ərazisinə gətirilmiş

əmlak sığorta olunmamış sayılır.

9.1. Sığorta ərazisi aşağıdakılar sayılır:

9.1.1. oğurluq halında – sığorta müqaviləsində göstərilmiş binaların otaqları;

9.1.2. qarətdən sığorta üzrə - bu əlavə şərtlərin 9.1.1.-ci maddəsində sadalanmışlarla yanaşı, kənar şəxslər tərəfindən istifadələrini istisna edən şəkildə çəpərləndikdə, sığorta müqaviləsində göstərilmiş və ya sığortalanmış binaların inşa edildiyi torpaq sahələrinin ərazisi;

9.1.3. daşınma zamanı qarətdən sığorta (bu əlavə şərtlərin 4-cü maddəsi) – sığortalanmış əmlakın daşınmasının adi və rasional seçilmiş marşrutları; sığortalanmış nəqliyyat vasitəsinə yüklənmək üçün olduğu yerdən çıxarıldığı an marşruta daxil olmuş, çatdırılacağı şəxslərə təhvil verildiyi an isə marşrutdan çıxmış hesab edilir;

9.2. oğurluq sığortasının qaydalarının 8-ci maddəsinə əlavə olaraq aşağıdakılar riskin dərəcəsinin artması hesab edilir:

9.2.1. bu əlavə şərtlərin 9.2-ci maddəsinə əsasən qiymətli əmlak üçün nəzərdə tutulmuş saxlanma yerləri ləğv edilməsi və ya daha az etibarlı yerlə əvəz edilməsi və ya saxlanma yerlərinin etibarlılıq dərəcəsinin azalması;

9.2.2. sığortalanmış binaların və yerlərin təmiri və ya yenidən təchiz edilməsi və həmçinin bilavasitə sığortalanmış binalara və yerlərə bitişik olan binaların və yerlərin təmiri və ya bu cür binalarda taxtabəndin və ya qaldırıcı mexanizmlərin quraşdırılması;

9.2.3. bilavasitə sığortalanmış yerlərə bitişik (yuxarıdan, aşağıdan və ya yandan) yerlərin uzun müddətə (60 gündən artıq) boşaldılması;

9.2.4. Sığortalının təsərrüfat fəaliyyətinin uzun müddətə (60 gündən artıq) dayandırılması;

9.2.5. bu cür kilidlərin açarları daha əvvəl itirildikdə, Sığortalının sığortalanmış yerlərdə və saxlanma yerlərində kilidlərin onlara bərabər kilidlərlə əvəz edilməsi üzrə tədbirlər görməməsi.

10. Sığortalı riskin dərəcəsini artıran halların aradan qaldırılması üçün bütün mümkün tədbirləri dərhal görməli, bu mümkün olmadıqda, Sığortaçı ilə razılaşdıraraq əlavə təhlükəsizlik tədbirləri görməli.

11. Qaydaların 9-cu maddəsinin müddəalarına əlavə olaraq, Sığortalı qanunlarla, normativ aktlarla və ya sığorta müqaviləsi ilə nəzərdə əmlakın mühafizəsi qaydalarına riayət etməlidir:

11.1. qanunlarla, normativ aktlarla və ya sığorta müqaviləsi ilə nəzərdə əmlakın mühafizəsi və qiymətli əşyaların saxlanması qaydalarına riayət etməli:

11.2. iş vaxtından kənar vaxtlarda sığortalanmış yerlərin bağlanmasını, zəruri hallarda isə onların mühafizəsini təmin etməli;

11.3. sığorta müqaviləsi ilə xüsusi sığorta təminatı nəzərdə tutulduqda, əmlakın siyahısını tutmaq və uçotunu aparmaq.

12. qaydaların 13-cü maddəsinə əlavə olaraq, sığorta hadisəsi baş verdikdə, Sığortalı aşağıdakıları etməlidir:

12.1. hadisə barədə dərhal müvafiq daxili işlər orqanlarına məlumat verməli;

12.2. oğurlanmış əmlakın siyahısını daxili işlər orqanlarına təqdim etməli;

12.3. Sığortaçı ilə razılaşdırılmış həddi aşan zərərlər (kassa zərəri) baş verdikdə, bu cür zərərin aşkar edildiyi gündən sonrakı 3 gün ərzində Sığortaçıya bu haqda məlumat verməli.

13. Sığortalı sığorta hadisəsi nəticəsində itirilmiş əmlakın olduğu yeri öyrəndikdə, bu haqda dərhal

Sığortaçıya məlumat verməlidir.

14. Sığorta hadisəsi nəticəsində itirilmiş əmlak:

14.1. zərər ödənilənədək zədələnməmiş vəziyyətdə Sığortalıya qaytarıldıqda, sığorta təminatı ödənilmir;

14.2. zərər ödənildikdən sonra zədələnməmiş vəziyyətdə Sığortalıya qaytarıldıqda, Sığortalı Sığortaçıdan aldığı sığorta ödənişi məbləğini ona qaytarmalıdır. Lakin bu cür əmlak sığorta hadisəsindən bir il keçdikdən sonra qaytarıldıqda, Sığortalı alınmış sığorta ödənişi qaytarmaya bilər. sonuncu halda qaytarılmış əmlak Sığortaçının mülkiyyətinə keçir. Sığortalı bu əmlakı və həmçinin bu əmlakın Sığortaçının mülkiyyətinə keçməsini təsdiq edən sənədləri Sığortaçıya təhvil verməlidir;

14.3. zədələnmiş vəziyyətdə Sığortalıya qaytarıldıqda, Sığortaçı qaydaların 19.14-cü maddəsinə əsasən sığorta ödənişi verir.

15. oğurluq və qarət üzrə sığorta təminatı Sığortaçı ilə bağlanmış əmlakın yanğından sığortası üzrə əsas müqaviləyə əlavə olaraq verilir.

16. Sığorta müqaviləsində bu əlavə sığortaya münasibətdə başqa hal nəzərdə tutulmayıbsa, digər bütün hallarda yanğından və digər risklərdən sığortası qaydaları tətbiq olunur.

Qeyd-şərt 3

Əmlakın üçüncü şəxslər tərəfindən qəsdən zədələnməsi və ya məhv edilməsi (Şərtlərin 5.2.2.2-ci maddəsinə)

1. Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarına əsasən bağlanmış sığorta müqaviləsi və bu əlavə şərtlər üzrə Sığortaçı qəsdən zərər vurma, vandalizm və ya sığortalanmış əmlakın üçüncü şəxslər tərəfindən məhv edilməsi nəticəsində əmlakın zədələnməsi və ya məhvinə qarşı təminat verir.

2. Bu əlavə şərtlər aşağıdakılara təminat vermir:

2.1. sığortalanmış binaların konstruksiya elementlərinin zədələnməsi xaric, oğurluq və qarətlə bağlı dəyən zərər (qeyd-şərt 2 üzrə sığortalanır)

2.2. kütləvi iğtişaşlarla bağlı dəyən zərər (qeyd-şərt 4 üzrə sığortalanır);

2.3. Sığortalının özünün və ya rəhbər işçilərindən birinin təqsiri ucbatından dəyən zərər;

2.4. muzdla işləyən işçilərin və ya şəxslərin vurduğu zərər.

Qeyd-şərt 4

Əmlakın kütləvi iğtişaşlar riskinə qarşı sığortasının əlavə şərtləri (şərtlərin 5.2.2.3-cü maddəsinə)

1. Sığorta baxımından kütləvi iğtişaşlar dedikdə üçüncü şəxslərin səhhətinə, sığortalanmış əmlaka qəsdən və açıq şəkildə zərər vuran və hüquq-mühafizə orqanlarına aktiv müqavimət göstərən böyük sayda mülki şəxslərin (izdihamın) hüquqazidd hərəkətləri.
2. Bilavasitə kütləvi iğtişaşlarla bağlı olan qarətlər, talan zamanı əmlakın oğurlanması nəticəsində vurulmuş zərər sığortalanmış hesab edilir.
3. Nəqliyyat vasitələrində olan əmlaka vurulan zərər, şüşələrin sınması, su anbarlarından suyun vurduğu zərər Sığortaçının bu qeyd-şərt üzrə məsuliyyətindən istisna edilir.

Qeyd-şərt 5

Su borularından olan suyun, buxarın və mayelərin vurduğu zərərə qarşı əmlak sığortasının əlavə şərtləri (şərtlərin 5.2.3.1-cü maddəsinə)

1. Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarına əsasən bağlanmış sığorta müqaviləsi və bu əlavə şərtlər üzrə Sığortaçı bina daxili və ya binadan kənar olan xarici su borularından, kanalizasiya şəbəkələrindən və isitmə sistemlərindən, su çənlərindən, kranlardan suyun, buxarın, digər mayelərin sızması və həmçinin gözlənilməz və zəruri olmayan hallarda yanğınsöndürmə sistemlərinin (sprinkler sistemlərinin) işə düşməsi nəticəsində əmlakın zədələnməsinə qarşı təminat verir.

2. Bina və tikililər sığortalandıqda, aşağıdakılara dair sığorta təminatı də verilir:

2.1. bilavasitə sığortalanmış binalarda və tikililərdə olan su borularının, bu əlavə şərtlərin 1-ci maddəsində sadalanımış sistemlərin qəfil sınmalarının aradan qaldırılması üzrə xərclər (habelə qonşu tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən, otaqlardan daxil olan su nəticəsində subasma); boruların əvəz edilməsi zərurəti halında hər bir sığorta hadisəsi üzrə boruların zədələnmiş hissəsinin uzunluğuna ölçülən iki metrindən artıq olmamaqla xərclər ödənilir;

2.2. bu əlavə şərtlərin 2.1-ci maddəsində göstərilmiş su borularının və kranlar, ventillər, çənlər, vannalar, radiatorlar, isidici qazanlar, boylerlər və s. kimi onlara bilavasitə qoşulmuş aparat və cihazların qəfil donmaları nəticəsində ortaya çıxmış xərclər;

2.3. bu əlavə şərtlərin 2.1-ci maddəsində göstərilmiş binanın içində olan boruların, isitmə batareyalarının donunun açılması xərcləri.

2.4. binanın içində reservuarlardan, isitmə sistemlərindən neft məhsullarının sızması ilə bağlı zərər.

Aşağıdakı xərclər ödənilmir:

3.1. sığortalanmış binaların və yerlərin xaricində olan su, kanalizasiya şəbəkələrinin, isitmə və ya yanğına qarşı sistemlərin boru kəmərlərinin və ya digər hissələrinin təmiri və ya əvəz edilməsi və həmçinin donunun açılması üzrə;

3.2. isitmə və digər sistemlərin su ilə, neft məhsulları ilə doldurulması üzrə.

4. yanğınsöndürmə sprinkler sistemlərinin qəfil işə düşməsi nəticəsində dəymiş zərərlərə ancaq onlar aşağıdakıların nəticəsində baş vermədikdə təminat verilir:

4.1. yanğın zamanı ortaya çıxmış yüksək temperatur;

4.2. sığortalanmış binaların və tikililərin təmiri və ya yenidən inşası;

4.3. sprinkler sistemlərinin özünün quraşdırılması, sökülməsi, təmiri, konstruksiyasının dəyişdirilməsi;

4.4. sığorta hadisəsi baş verənədək Sığortalının bildiyi və ya bilməli olduğu inşaat çatışmazlıqları və ya sprinkler sistemlərinin özlərinin çatışmazlıqları.

5. Aşağıdakılara sığorta ilə təminat verilmir:

5.1. bu əlavə şərtlərin 1-ci maddəsində göstərilmiş halların hər hansı biri daşqın, qrunt sularının səviyyəsinin qalxması, yağış və ya qar suyunun birbaşa təsirindən yaranarsa;

5.2. süni şəkildə yaradılmış aşağı temperatur (şaxta) nəticəsində dondurucu qurğuların səbəb olduğu zərərlər;

5.3. bu əlavə şərtlərin 1-ci maddəsində göstərilmiş sistemlərin təbii köhnəlməsi, korroziyası və ya paslanması nəticəsində dəymiş zərərlər;

5.4. əldə çıxmış fayda, gəlir itkisi, su, buxar və ya istiliyin itkisi və s. kimi dolayı zərərlər;

5.5. döşəmə səthindən 20 sm.-dən daha az məsafədə zirzəmi və ya digər dərində yerləşən yerlərdə saxlandıqda, anbarda saxlanan malların vurduğu zərərlər;

5.6. sığortanın başlanmasından əvvəl baş vermiş, lakin başlanmasından sonra aşkar olunmuş zərərlər.

6. Sığortalının aşağıdakı öhdəlikləri var:

6.1. sığortalanmış binalarda və tikililərdə su kəmərləri, kanalizasiya, isitmə və yanğına qarşı sistemlərin normal istismarını, onlara vaxtlı-vaxtında texniki xidmətin göstərilməsini və təmir olunmalarını təmin etmək;

6.2. sığortalanmış binaların və tikililərin əsaslı təmir və ya digər məqsədlər üçün 60 gündən daha uzun müddətə boşaldılması halında yuxarıda qeyd olunan sistemləri söndürmək və onların sudan və buxardan vaxtında azad edilməsini təmin etmək.

7. Sığortalı bu əlavə şərtlərin 6-cı maddədə göstərilmiş öhdəlikləri yerinə yetirmədikdə, Sığortaçı həmin yerinə yetirməmənin zərərin həcmini artırdığı həddə sığorta ödənişini tam və ya qismən verməkdən imtina edə bilər.

8. Su kəmərlərindən suyun vurduğu zərərlər üzrə sığorta təminatı Sığortaçı ilə bağlanmış əmlakın yanğından sığortası üzrə əsas müqaviləyə əlavə olaraq verilir.

9. Sığorta müqaviləsində bu əlavə sığortaya münasibətdə başqa hal nəzərdə tutulmayıbsa, digər bütün

hallarda yanğından və digər risklərdən sığortası qaydaları tətbiq olunur.

Qeyd-şərt 6

Nəqliyyat vasitələrinin vurması ilə bağlı əmlak sığortasının əlavə şərtləri (şərtlərin 5.2.3.2-ci maddəsinə)

1. Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarına əsasən bağlanmış sığorta müqaviləsi və bu əlavə şərtlər üzrə Sığortaçı nəqliyyat vasitələrinin sığortalanmış əmlakı vurması nəticəsində əmlakın zədələnməsi və ya məhvi ilə bağlı zərərlərə təminat verir.

2. Nəqliyyat vasitələrinin vurması dedikdə yerüstü, hava və su nəqliyyat vasitələri ilə təmas nəticəsində sığortalanmış əmlakın bilavasitə məhv olması və ya zədələnməsi.

3. Aşağıdakılara sığorta ilə təminat verilmir:

3.1. Sığortalının, sığortalanmış binalardan istifadə edənlərin və ya onların işçilərinin istismar etdikləri nəqliyyat vasitələrinin əmlaka vurduğu zərərlər;

3.2 Sığortalının nəqliyyat vasitələrinə vurulmuş ziyan.

Qeyd-şərt 7

Sığorta hadisəsi nəticəsində binaların uçması (çökməsi) ilə bağlı əmlak sığortasının əlavə şərtləri (şərtlərin 5.2.3.3-cü maddəsinə)

1. Sığortaçı sığorta hadisəsi nəticəsində binanın (tikilinin) qəfildən tam və ya qismən dağılması ilə bağlı sığortalanmış əmlaka vurulmuş zərəri ödəyir.

2. Çökmənin binalara və tikililərə qeyri-qənaətbəxş xidmət, pis inşaat torpağı, zəlzələ kimi səbəbləri istisna olunur.

3. Obyektlərin inşası, quraşdırılması, yenidən inşası zamanı binaların və ya onların konstruktiv elementlərinin çökməsi nəticəsində dəymiş zərərlər sığortalanmış hesab edilmirlər.
3.. Bu Şərtlərə əsasən layihəçinin, inşa edənin səhvi və ya səhlənkarlığı nəticəsində binaların, tikililərin uçması ilə bağlı ortaya çıxmış zərərə təminat verilmir.

Qeyd-şərt 8

Tüstünün vurduğu zərərlə bağlı əmlak sığortasının əlavə şərtləri (şərtlərin 5.2.3.4-cü maddəsinə)

1. Sığortaçı tüstü ilə sığortalanmış əmlaka vurulmuş zərərlərə təminat verir.

2. Tüstü ilə vurulmuş zərər dedikdə sığortalanmış ərazidə olan qurğulardan (əritmə sobaları, odluq, hisxana və s.) qəfildən, nəzərdə tutulmamış şəkildə (təyinatı üzrə olmayan şəkildə) çıxmış tüstü (duda, his) ilə sığortalanmış əmlakın bilavasitə məhv edilməsi və ya zədələnməsi başa düşülür.

Tüstünün uzun müddətli təsiri nəticəsində dəymiş zərərlərə sığorta təminatı verilmir.

Qeyd-şərt 9

Səs zərbəsi ilə bağlı əmlak sığortasının əlavə şərtləri (şərtlərin 5.2.3.5-ci maddəsinə)

Sığortaçı səs zərbəsinin təsiri nəticəsində sığortalanmış əmlakın zədələnməsi, məhv olması ilə bağlı zərərlərə təminat verir. Sığortaçı köhnəlmiş bina və tikililərə vurulmuş zərərə və həmçinin səs zərbəsindən ölmüş və ya qorxudan travma almış kənd təsərrüfatı heyvanlarına görə məsuliyyət daşımır.

Qeyd-şərt 10

İşin dayanması nəticəsində baş verən zərər və itkilər üzrə əmlak sığortasının əlavə şərtləri (şərtlərin 5.2.3.6-cı maddəsinə)

1. Sığortaçı razılaşır ki, Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarının müddəalarına əməl olunması şərtilə, sığorta müqaviləsinin qüvvədə olduğu müddətdə həmin müqavilədə qeyd olunmuş risklər nəticəsində əmlaka dəymiş zərər və itkilərlə əlaqədar olaraq işin dayanması hallarında Sığortaçı işin dayanması ilə əlaqədar sığorta təmiantı verir. Bu halda nəzərə almaq lazımdır ki, Sığortaçının məsuliyyəti heç bir halda Sığorta Müqaviləsində göstərilən sığorta məbləğindən yuxarı ola bilməz.

2. Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa, aşağıdakılar nəticəsində də baş vermiş işin dayanmasına görə baş verən zərər və itkilərə görə həmçinin sığorta təminatı verilir:

a. Sığortalıya məxsus olmayan və onun tərəfindən icarə müqaviləsinə, yaxud başqa şərtlər əsasında uzun müddət üçün (12 aydan yuxarı) istifadəyə götürülmüş avadanlıq, yaxud digər daşınar əmlakın zərər çəkməsi və məhv olmasına görə işin dayanmasına əsasən sığorta təmiantı verilir. Lakin nəzərə almaq lazımdır ki, bu cür əmlak və avadanlıqlar zərər dəyən anda təsərrüfat məqsədləri üçün Sığortalının istifadəsində, eləcə də, sığorta müqaviləsində göstərilən sığorta təminatının əhatə ərazisi hüdudlarında olmalıdır.

b. Sığorta müqaviləsində göstərilən sığorta təminatının əhatə ərazisində yerləşən və sığortalının istehsal, kommersiya və digər təsərrüfat məqsədi ilə istifadə etdiyi, hətta ona məxsus olmayan, lakin onun tərəfindən icarə müqaviləsi, yaxud hər hansı digər hüquqi əsasla istifadə olunan binanın zədələnməsi, yaxud məhv olması.

3. Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa işin dayanması, sığorta obyekti hesab olunmayan əmlakların zərər çəkməsi, itirilməsi, yaxud məhv olması səbəbindən baş vermişdirsə, bu zaman işin dayanmasına görə sığorta təminatı verilmir və heç bir ödəniş həyata keçirilmir.

4. Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa, işin dayanması ilə əlaqədar zərər və itkilər aşağıdakılardan ibarətdir:

a. Sığortalının işinin dayanması müddətində sığortalanmış təsərrüfat fəaliyyətinin davam etdirilməsi üzrə cari xərcləri;

b. Işin dayanması nəticəsində Sığortalının təsərrüfat fəaliyyətindən əldə etdiyi gəlirin itirilməsi.

5. Sığortalının təsərrüfat fəaliyyətinin davam etdirilməsi üzrə cari xərcləri sığortalının labüd surətdə işin dayanması zamanı çəkdiyi xərclərdir. Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərd tutulmamışdırsa aşağıdakılar bu cür xərclərə aid edilə bilər:

a. Sığortalının işçilərinin və xidmətçilərinin əmək haqqı;

b. Sosial sığorta orqanlarına ödəmələr, digər analoji ödəmələr.

c. Əgər icarə müqaviləsinə əsasən icarə haqqının icarəyəgötürən tərəfindən ödənilməsi nəzərdə tutulmuşdursa, Sığortalının öz təsərrüfat fəaliyyəti üçün icarəyə götürdüyü binanın, avadanlıqların və s. icarə haqqı;

d. Müəssisənin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq, vergi və ödəmələr;

e. Kredit və digər cəlb olunmuş vəsaitlər üzrə faiz ödəmələri. Bu halda nəzərə alınmalıdır ki, həmin vəsait sığorta hadisəsi nəticəsində dayanmış olduğu təsərrüfat fəaliyyətinə yönəldilmiş olmalıdır.

f. Sığortalının müəssisəsi üçün müəyyən edilmiş amortizasiya hesablaşmaları.

6. Sığortalanmış təsərrüfat fəaliyyəti prosesində itirilən gəlir Sığortalının işinin dayanması müddətində əldə edə biləcəyi gəlir hesab olunur:

a. Istehsal müəssisələri – məhsul buraxılması hesabına;

b. Xidmət sahəsinə aid olan müəssisələr – xidmət göstərilməsinə görə;

c. Ticarət müəssisələri – əgər Sığortalının təsərrüfat fəaliyyəti maddi zərər dəyməsi nəticəsində dayandırılmış olmasaydı mal və məhsulların satılmasına görə

7. Aşağıda göstərilən xərclər təsərrüfat fəaliyyətinin davam etdirilməsi üçün nə cari xərclərə, nə də

itirilmiş gəlirə aid edilmir:

a. Satışdan, dövriyyədən vergilər və onlara oxşar olan digər vergi və ödəmələr, gömrük rüsumları, habelə kapital və əsas fondlardan tutulan vergilər və müəssisələrin təssərüfat fəaliyyəti nəticəsindən asılı olaraq hesablanan digər vergilər;

b. Sığortalının təsərrüfat fəaliyyətində istifadə olunan xammal, polufabrikat və materialların alınması xərcləri;

c. Satış dövriyyəsi əsasında lisenziya və müəllif təltiflərinin ödənilməsi, habelə ixtiraya görə təltiflər və sığorta tədiyyələri;

d. Sığortalının göndərdiyi malların daşınma xərcləri və onunla əlaqədar olan digər xərclər;

e. Qiymətli kağızlarla, torpaq sahələri ilə, və ya sərbəst pul vəsaitləri ilə yaxud kapitallarla bağlı əməliyyatlar, habelə bu cür əməliyyatlardan əldə olunan gəlirlər hansılar ki, Sığortalının sığorta müqaviləsində göstərilən təsərrüfat fəaliyyətinə bilavasitə aidiyyatı olmayan əməliyyatlar üzrə xərclərdir;

f. Sığortalının onunla bağlanmış müqaviləyə əsasən müqavilə öhdəliklərinin yerinə yetirilməməsi səbəbindən ödəməli olduğu cərimə, dəbbə pulları, yaxud pul formasında digər cərimə sanksiyaları, o cümlədən məhsulun istesalının, yaxud xidmət göstərilməsinin ləngidilməsi, daşımanın təxirə salınması, yaxud digər oxşar öhdəliklər, əgər:

a) Bu cür yerinə yetirməmə sığorta müqaviləsində göstərilən təsərrüfat fəaliyyətində fasilənin başlanmasının bilavasitə nəticəsi olmamalıdır;

b) Yuxarıda göstərilən sanksiyalar işin dayanmasına səbəb olan maddi zərərin baş verməsindən sonra qüvvəyə minən müqavilə ilə nəzərdə tutulmalıdır.

8. Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa bu ümumi qaydaların istisnalar bəndinə əlavə olaraq aşağıdakılara görə Sığortaçı işin dayanmasına görə sığorta təminatı vermir və sığorta ödənişi həyata keçirmir:

a. Maddi zərərin baş verməsindən əvvəlki vəziyyətlə müqayisədə istehsalın artırılması, yaxud yeniləşdirilməsi ilə əlaqədar olaraq zərərin artması;

b. Istehsalın bərpa edilməsində və yeniləşdirilməsində fövqəladə ləngimələrin baş verməsi. Məsələn bu cür ləngimələr məhkəmədə, arbitrajda işlərin aparılması, mülkiyyət münasibətlərinin, icarə məsələlərinin aydınlaşdırılmasına və s. aid ola bilər;

c. Sığortalı maddi zərər dəymiş əmlakın bərpa edilməsi və onun əvəz olunması ilə əlaqədar işləri görə bilmədiyi və vaxtlı-vaxtında istehsal prosesinin bərpa olunması üçün zəruri tədbirləri yerinə yetirə bilmədiyi təqdirdə;

d. Inzibati orqanlar, yaxud hər hansı dövlət orqanının təzyiqi ilə hər hansı bərpa işlərinin yerinə yetirilməsinə, yaxud Sığortalının təsərrüfat fəaliyyətinə mane olunması səbəbindən əmlakın bərpa edilməsi, yaxud istehsal prosesinin yenidən təşkil edilməsinin ləngiməsi;

e. Əmlakın sığortalanmış hissəsinin zədələnməsi, məhv olması, yaxud itirilməsi nəticəsində sığortalanmamış əmlak hissəsindən istifadəsi qeyri-mümkün olması nəticəsində işin dayanması nəticəsində zərərin miqdarı artarsa.

9. Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığortaçı sığorta müqaviləsində qeyd olunmuş risklər nəticəsində işin dayanması tarixindən etibarən 12 aydan yuxarı olmamaq şərtilə işin dayanması nəticəsində baş verən zərər və itkilərə təminat verir.

10.Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsində göstərilən risklər nəticəsində işin dayanması nəticəsində baş verən zərər və itkilərin sığortalanması üzrə sığorta məbləği Sığortalının məsuliyyət daşıdığı müddət üçün planlaşdırılan cari xərcləri və təmiz gəliri həcmində müəyyən olunur. Planlaşdırılan cari xərclər və təmiz gəlir Sığortalı tərəfindən sığorta müqaviləsinin qüvvəyə mindiyi tarixdən müəyyən edilir. Burada Sığortaçı sığorta məbləğini özü tərəfindən və ya onun tələbi ilə müstəqil auditor şirkəti tərəfindən təsdiq edilməsini tələb etmək hüququna malikdir. Bu sığorta növü üzrə ödəniş məbləği şəhadətnamədə qeyd olunmuş sığorta məbləğindən yuxarı ola bilməz. Sığorta ödənişi zamanı sığorta məbləği həmin ödənişlərin həcmi qədər azalır.

11. Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmayıbsa, sığorta müqaviləsində qeyd olunmuş risklər nəticəsində işin daynması üzrə sığorta məbləği həqiqi cari xərclərdən və xalis gəlirdən aşağı olarsa, Sığortaçı sığorta hadisəsi baş verdikdə Sığorta ödənişini sığorta məbləğinin həqiqi cari xərclərə,

yaxud Sığortalının təm iz gəlirinə olan nisbətində ödəyir.

12. Əgər əmlakın bir hissəsinin yanğın və digər əlavə risklərdən sığotası üzrə digər sığorta müqaviləsi vardırsa, Sığortalı bu cür sığorta müqaviləsi barədə Sığortaçıya məlumat verməlidir. Əgər işin dayanması nəticəsində baş verən zərər və itkilər digər sığorta müqaviləsi ilə sığortalanarsa onda bu növ sığorta üzrə sığorta məbləği digər sığorta müqaviləsndə göstərilən sığorta məbləği nəzərə alınmaqla müəyyənləşdirilə bilər.

13. Əmlakın sığorta müqaviləsində göstərilən risklər nəticəsində işin dayanması ilə əlaqədar zərər və itkilər baş verdikdə, sığorta ödənişinin həcmi təsərrüfat fəaliyyətinin yerinə yetirilməsi üçün çəkilən cari xərclər və faktiki təmiz gəlirlər əsasında müəyyən edilir.

14. Sığorta ödənişinin həcmi müəyyən edilərkən əgər sığorta müqaviləsində göstərilən hadisələr baş verməsəydi sığortalanmış təsərrüfat fəaliyyətinin gedişinə və onun nəticələrinə təsir göstərə bilən bütün faktorlar nəzərə alınmalıdır.

15. Təsərrüfat fəaliyyətinin davam etdirilməsi üçün cari xərclərə görə yalnız o halda ödəniş verilir ki, Sığortalı qanuna əsasən, yaxud müqaviləyə uyğun olaraq bu cür xərclərin aparılmasına boclu olmuş olsun.

16. Təsərrüfat fəaliyyətinin davam etdirilməsi üçün cari xərclərin və gəlirin itirilməsinə görə sığorta ödənişin həcmi sığorta müqaviləsində göstərilən hadisələr nəticəsində işlərin dayanması müddətində, Sığortalının həmin hadisələr baş verməsəydi təssərrüfat fəaliyyəti nəticəsində əldə edə biləcəyi gəlir həcmində müəyyənləşdirilir.

17. Sığortalının binası, avadanlıqları və digər əsas vəsaitlərinin amortizasiya ayırmaları üzrə ödəniş yalnız o halda həyata keçirilir ki, həmin ayırmalar zərərə məruz qalmamış əsas vəsaitlər, yaxud onların zərər dəyməmiş hissələri ilə əlaqədar yerinə yetirilmiş olsun.

18. Bu sığortaya görə sığorta ödənişi məbləğinin hesablanması Sığortalının mühasibat uçotunun məlumatları əsasında aparılır. Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmmışdırsa sığortalı öz hesabına mühasibat uçotunu aparmalı və sığortaçı tələb etdikdə, bütün mühasibat sənədlərini və sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün zəruri olan digər sənədləri təqdim etməlidir. Bundan başqa sığortalı axır üç il ərzində əsas fondların balansını və invnetar cədvəlini saxlamalı və onların bir zamanda məhv olmamasına şərait yaratmalıdır. Sığortalı yuxarıda qeyd olunmuş öhdəlikləri yerinə yetirmədikdə sığortaçı sığorta ödənişin verilməsində imtina etmək hüququna malikdir.

19. Sığortaçı, yalnız aşağıdakı hallarda sığortalının sığorta müqaviləsində göstərilən risklər nəticəsində işin dayanması ilə əlaqədar zərər və itkilərin qarşısını almaq üçün çəkdiyi xərclərə görə təminat verir:

a. Həmin xərclərin köməyi ilə Sığortaçı tərəfindən həyata keçiriləcək sığorta ödənişinin həcmi azalarsa;
b. Həmin xərclər Sığortaçının bildiyi halda və onun əvvəlcədən razılığını almaqla həyata keçirilərsə;
c. Həmin xərclərin çəkilməsinin təxirəsalınmaz olduğunu nəzərə alaraq, Sığortalı həmin xərclərin çəkilməsi üçün Sığortaçının razılığını almağa macal tapmamışdırsa, Sığortalı ilk imkan yaranan kimi o görülən tədbirlər haqqında Sığortaçıya məlumat verməlidir. Sonuncu hal baş verərsə Sığortaçı həmin xərclərin dayandırılmasına və ya Sığortalının həmin qarşısı alınma tədbirlərin dəyişdirilməsinə tələb etmək hüququna malikdir.

20. Aşağıdakılar nəticəsində sığorta ödənişi verilmir:
a. Bu sığorta müqaviləsinə görə maksimal məsuliyyət müddəti başa çatdıqdan sonra;
b. Sığortalının xərcləri hanslar ki, sığorta müqaviləsinə əsasən təminat verilmir;
c. Bu müqavilənin bu sığorta növünə aid hissənin 10-cu bəndinə uyğun olaraq müəyyənləşdirilmiş sığorta məbləğindən yuxarı olan xərclər.

21. Əgər Sığortalı, yaxud onun idarəedən əməkdaşlarından hər hansı biri bilə-bilə, yaxud kobud səhlənkarlıq nəticəsində sığorta müqaviləsində göstərilən risklərin baş verməsinə şərait yaradarsa və onlar nəticəsində işin dayanması ilə əlaqədar zərər və itkilər əmələ gələrsə, yaxud zərər həcminin müəyyənləşdirilməsində qəsdən Sığortaçını, yaxud onun nümayəndəsini çaşdıran hərəkətlərə yol verərsə, Sığortaçı həmin zərər və itkilərə görə sığortalıya ödəniş vermək öhdəliyindən azad olur.

22. Sığorta müqaviləsində göstərilən risklər nəticəsində işin dayanması ilə əlaqədar zərər və itkilər baş verərsə, sığortaçı həmin zərər və itkilərə sığorta müqaviləsində göstərilən gözləmə müddəti ərzində cavabdeh deyil. Pəncərə şüşələrinin, güzgülərin və vitrinlərin sığortası Sığortaçı ilə bağlanmış əmlakın yanğın və digər risklərdən sığorta müqaviləsinə əlavə kimi təqdim olunur.

23. İstehsalatda dayanmanın vurduğu zərərə sığorta təminatı Sığortaçı ilə bağlanmış əmlakın yanğından və digər risklərdən əsas sığorta müqaviləsinə əlavə kimi verilir.

24. Sığorta müqaviləsində istesalatın dayanmasından gəlir itkisi nəticəsində dəymiş zərərə dair bu əlavə sığortaya münasibətdə başqa hal nəzərdə tutulmayıbsa, digər bütün hallarda yanğından və digər risklərdən sığortaı qaydaları tətbiq olunur.

Qeyd-şərt 11

Üçüncü şəxslərə qarşı mülki məsuliyyət sığortasının əlavə şərtləri (şərtlərin 5.2.3.7-ci maddəsinə)

1. Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarına əsasən bağlanmış sığorta müqaviləsi və bu əlavə şərtlər üzrə Sığortaçı yanğın, ildırım yaxud partlayış və ya bunlarla əlaqədar əmələ gələn tüstü, buxar yaxud istilik və daxili su basması nəticəsində aşağıda qeyd olunan hallara təminat verir:

a) Üçüncü şəxslərin əmlakına zərərin vurulmasına görə sığortalının mülki məsuliyyəti.

Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa, üçüncü şəxslərin əmlakına vurulacaq zərərə görə, ödəniş məbləği məhkəmə xərcləri daxil olmaqla ödənilir. Hər bir halda sığorta ödənişin məbləği bu sığorta üzrə müəyyən edilmiş sığorta məbləğindən artıq ola bilməz.

b) Üçüncü şəxslərin sağlamlığına zərərin vurulmasına görə sığortalının mülki məsuliyyəti..

Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa, üçüncü şəxslərin həyat və sağlamlığına vurulmuş maddi ziyanla əlaqədar sığortalıya qarşı irəli sürülən iddia və tələblərə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq təminat verilir.

2. Sığorta müqaviləsinin tərəfi olmayan və bu qanuna görə yanğın hadisəsi nəticəsində əmlakına və sağlamlığına zərər vurulan hüquqi və fiziki şəxslər, habelə onların hüquqi varisləri üçüncü şəxs sayılırlar. Sığortalı, onun ailə üzvləri, onunla bir qeydiyyatda yaşayan şəxslər, və onun işçiləri üçüncü şəxs sayılmırlar.

3. Sığortalı hər hansı ziyanın baş verməsinə səbəb olmuş müəyyən əməl və ya hərəkətlərlə əlaqədar irəli sürülən istənilən tələb və iddianın araşdırılması, yaxud məhkəmə baxışı zaman belə əməl və hərəkətlərin sığorta müqaviləsi əsasında sığorta ödənişi verilməsinə əsas verdiyini müəyyən edərsə, bu halda Sığortaçı belə tələb, iddia və ya məhkəmə baxışı ilə əlaqədar Sığortalının çəkdiyi zəruri xərcləri ödəyir. Məhkəmə xərcləri sığortalı ilə sığortaçı arasında razılaşdırılaraq sığorta müqaviləsində qeyd olunur və əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa,həmin xərclər bu risk üzrə nəzərdə tutlmuş ümumi sığorta məbləğinin tərkib hissəsidir. Bu cürə xərclər sığorta müqaviləsində qeyd olunmuş ümumi sığorta məbləğinin həddinin həcmini azaldır.

Yuxarıdakılara aid olan hər hansı məhkəmə-təhqiqat işləri ilə bağlı məlumat dərhal Sığortalı tərəfindən yazılı şəkildə Sığortaçıya verilməlidir. Sığortalı həmçinin Sığortaçının xahişi ilə həmin məlumatları məhkəməyə təqdim olunmuş bütün ərizələrin və digər sənədlərin surəti ilə birgə Sığortaçıya təqdim etməlidir.

4. Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa bu ümumi şərtlərin 3-cü bəndinə əlavə olaraq aşağıdakılara görə Sığortaçı mülki məsuliyyətə görə sığorta təminatı vermir və sığorta ödənişi həyata keçirmir:

a) bu əlavə şərtlərin 1-ci bəndində qeyd olunan risklərdən başqa digər hər hansı risklər nəticəsində baş verən zərər və itkilərin baş verməsi

b) Sığortalının xüsusi mülkiyyətində olan, yaxud onun icarəyə götürdüyü, yaxud borca verdiyi əmlaka dəyən itki və ziyan;

c) Əgər əmlak zərəri sığortalının bağışladığı, yaxud imtina etdiyi hər hansı binanın bir hissəsindən baş qaldırarsa;

d) Sığortalıya borca verilmiş əmlaka dəyən itki və ziyan

e) Sığortalının nəzarətində, himayəsində və mühafizəsində olan şəxsi əmlaka dəyən itki və ziyan;

f) Sığortalının yaxud onun adından bilavasitə, dolayısı ilə fəaliyyət göstərən podratçı və ya subpodratçıların daşınmaz əmlakın bir hissəsində əməliyyatları yerinə yetirdiyi zaman əmlakın həmin hissəsinə dəyən itki və ziyan;

g) Sığorta hadisəsi sığortalının birbaşa qəsdlə törətdiyi əməlin (hərəkətin və ya hərəkətsizliyin) nəticəsində baş veribsə.

h) Sığortaçı Azərbaycan Respublikası Mülki Məcəlləsində və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş digər əsaslarla da sığorta ödənişi verməkdən imtina edə bilər.

5. Bu təminat Sığortaçı ilə bağlanmış əmlakın yanğından və digər risklərdən əsas sığorta müqaviləsinə əlavə kimi verilir.

6. Sığorta müqaviləsində bu əlavə sığortaya münasibətdə başqa hal nəzərdə tutulmayıbsa, digər bütün hallarda yanğından və digər risklərdən sığortaı qaydaları tətbiq olunur.

Qeyd-şərt 12

Tullantıların təmizlənməsi təminatının əlavə şərtləri (şərtlərin 5.2.3.8-ci maddəsinə)

1. Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarına əsasən bağlanmış sığorta müqaviləsi və bu əlavə şərtlər üzrə Sığortaçı tullantıların təmizlənməsi dedikdə, sığorta hadisəsi nəticəsində məhv olmuş və ya zərərə uğramış əmlakın sökülməsi, dağıdılması və ya dirək və digər vasitələrlə möhkəmləndirilməsi üçün Sığortalının çəkdiyi bütün və əsaslı xərclər başa düşülür.
2. Əgər sığorta müqaviləsi ilə başqa hal nəzədə tutulmamışdırsa, bu növ sığorta üzrə sığorta məbləği sığorta müqaviləsində göstərilən hər bir obyekt üzrə Sığorta məbləğinin 10%-i həcmindədir. Əgər sığorta müqaviləsi ilə başqa hal nəzədə tutulmamışdırsa, həmin məbləğ sığorta müqaviləsində göstərilən sığorta məbləğin tərkib hissəsidir.
3. Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa bu ümumi şərtlərin istisnalar bəndinə əlavə olaraq aşağıdakılara görə Sığortaçı tullantıların təmizlənməsi görə sığorta təminatı vermir və sığorta ödənişi həyata keçirmir:
3.1. əmlakın itki və ziyana məruz qaldığı yerə qonşu olan və ya həmin yerdən aralıda olan sahədə tullantıların təmizlənməsi ilə bağlı;
3.2. sığorta müqaviləsi ilə sığorta olunmayan əmlaklara.

4. Bu təminat Sığortaçı ilə bağlanmış əmlakın yanğından və digər risklərdən əsas sığorta müqaviləsinə əlavə kimi verilir.

5. Sığorta müqaviləsində bu əlavə sığortaya münasibətdə başqa hal nəzərdə tutulmayıbsa, digər bütün hallarda yanğından və digər risklərdən sığortaı qaydaları tətbiq olunur.

Qeyd-şərt 13

Buxar qazanlarının, qaz xətlərinin, maşınların, aparatların və digər analoji qurğuların partlaması təminatının əlavə şərtləri (şərtlərin 5.2.3.9-cu maddəsinə)

1. Əmlakın yanğından və digər risklərdən sığortasının ümumi qaydaları əsasında bağlanan sığorta müqaviləsinə əsasən buxar qazanlarının, qaz xətlərinin, maşın, apparat və digər analoji qurğuların partlaması nəticəsində sığortalanmış əmlakın zərər məruz qalması və məhv olmasına görə sığorta təminatı verir.
2. Partlayış – qazların sürətli genişlənməsinə əsaslanan, qısa zaman kəsiyində, böyük miqdarda enerjinin azad olma prosesidir.
3. Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa, yalnız o partlayış rezervuarın (qazanxananın, boru xəttinin) partlaması hesab olunur ki, həmin rezervuarın divarları o dərəcədə dağılmış olsun ki, onun həm daxilində, həm də kənarında təzyiq bərabər olsun.
4. Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa, rezervuarın daxilində kimyəvi reaksiyanın axması nəticəsində partlayış baş verərsə onda belə zərər çəkmiş rezervuarlara (onun divarlarında yarıqlar olmasa belə) sığorta təminatı verilir.
5. Əgər sığorta müqaviləsi ilə başqa hal nəzərdə tutulmamışdırsa aşağıdakılar nəticəsində yaranan partlayışa görə dəyən zərər və itkilərə sığorta təminatı verilmir:

- vakuum və yaxud qazın rezervuarda seyrəkləşməsi nəticəsində yaranan partlayış;
- yanma mühərriklərin və analoji maşın və aqreqatların yanma kamerasında baş verən partlayış;
- qoruyucu klapanların sınması və dağılması nəticəsində partlayış;
- suyun təsiri nəticəsində əmələ gələn genişlənmə və şişmədən yaranan partlayış;

  dinamit, yaxud digər partlayıcı maddələrin partlaması. Burada partlayıcı maddə dedikdə, tez kimyəvi reaksiya qabiliyyətinə malik, böyük miqdarda istilik və qazın ayrılması ilə müşahidə olunan və xüsusi olaraq bu və ya digər formada partlayışların həyata keçirilməsi üçün nəzərdə tutulan kimyəvi birləşmələr, yaxud maddələr xəlitəsi başa düşülür.

6. Bu təminat Sığortaçı ilə bağlanmış əmlakın yanğından və digər risklərdən əsas sığorta müqaviləsinə əlavə kimi verilir.

7. Sığorta müqaviləsində bu əlavə sığortaya münasibətdə başqa hal nəzərdə tutulmayıbsa, digər bütün hallarda yanğından və digər risklərdən sığortaı qaydaları tətbiq olunur.

Qeyd-şərt 14

Binaların şüşə elementlərinin sığortasının əlavə şərtləri (şərtlərin 5.3.1-ci maddəsinə)

1. Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarına əsasən bağlanmış sığorta müqaviləsi və bu əlavə şərtlər üzrə Sığortaçı binaların və tikililərin şüşə elementlərinin, o cümlədən, şüşələnmiş pəncərələrin, qapıların, daxili arakəsmələrin, güzgülərin və s.-in sındırılmasının səbəb olduğu zərərlərə təminat verir.

2. Tərəflərin xüsusi razılığına əsasən binaların, tikililərin şüşədən və ya şüşəyə bənzər materiallardan olan elementləri sığortaya qəbul edilir:

a) fasadların və divarların üzlüyü;

b) şüşədən və ya şüşəyə bənzər materiallardan işıq günbəzlər;

c) vitrajlar;

d) firma lövhələri, işıqverən və neon reklamlar;

e) sahəsi 4 m^2-dən artıq olan bütöv şüşələr (vitrinlər), əyilmiş şüşələr;

3. Sığorta şəhadətnaməsində sadalanmış binaların, tikililərin şüşə elementlərinin sınması ilə bağlı zərərə təminat verilir,

4. Şüşələrin səthinin zədələnməsi (məsələn, sıyrıntı) ilə bağlı zərərə təminat verilmir.

5. Aşağıdakıların nəticəsində dəymiş zərərlər ödənilmir:

a) şüşələrin yerinin dəyişdirilməsi (daşınması, başqa yerə aparılması), müvafiq şüşə işlərinin icrası;

b) çərçivələrin qoyulması, pəncərə və ya qapı çərçivələrindən və ya onların daimi bərkidildiyi digər yerlərdən çıxarılması və ya sökülməsi işlərinin icrası, şüşələrin bağlanmasından, qoyulmasından və ya salınmasından əvvəl və ya bu əsnada baş vermiş zərərlər.

c) sıyrıntılar, şüşənin səthinə boyanın qırıntılarının və ya tozunun və s.-nin yayılması (təsadüfi və ya qəsdən), cilalama və ya naxış vurma, tozlanmanın zədələnməsi və ya tökülməsi, şüşəyə həddindən artıq boyanın vurulması və ya boyanın qaralması ilə şərtlənən zərərlər və həmçinin qaynaq və qızdırıcı aparatların vurduğu zərərlər;

d) daşınan güzgülərin, şüşə qab-qaşığın, bütün növ boş (şişirtmə) şüşələrin və işıqverən armaturaların, közərmə lampaların sındırılması.

6. Tərəflərin razılığına əsasən aşağıdakılarla bağlı xərclərə təminat verilə bilər:

- sındırılmışla tam analoji şüşə ilə təcili əvəzləmək mümkün olmadıqda, sınmış şüşələrin müvəqqəti əvəz edilməsi;

- sınmış şüşələrin əvəz edilməsinə mane olan predmetlərin quraşdırılması və çıxarması (jalyuzi, barmaqlıqlar və s.);

- yuxarı mərtəbələrdə şüşələrin əvəz edilməsi üçün zəruri olduqda, inşaat taxtabəndlərinin icarəsi və quraşdırılması;

- sındırılmış şüşənin yerinə qoyulan şüşənin rənglənməsi, naxış vurulması, qazınması, pərdə və ya lakla örtülməsi, yandırılması və günəşdən qoruyan işləmədən keçirilməsi.

- işıqverən reklam qurğularının quraşdırılması və yığılması.

7. Qaydaların 9-cu maddəsinin müddəalarına əlavə olaraq sığortalanmış şüşələrə dair aşağıdakı

təhlükəsizlik qaydaları müəyyən edilir:

7.1. İsidici cihazlarla və isti su ilə sığortalanmış şüşələrin donunun açılmasına yol verilmir;

7.2. İsidici cihazlar, pilətələr və ya reklam işıqverən qurğular sığortalanmış şüşələrdən ən azı 30 sm. məsafəsində yerləşdirilməlidirlər.

7.3. Yerlər icarəyə verildikdə, Sığortalı yuxarıda qeyd olunan təhlükəsizlik qaydaları haqqında icarəçiyə məlumat verməlidir.

Yuxarıda qeyd olunan təhlükəsizlik qaydalarının pozulması şərtlərin 13.2-ci maddəsində nəzərdə tutulmuş nəticələrə səbəb olur.

8. Tərəflərin xüsusi razılığına əsasən inşaatı bitməmiş və ya onlardan birbaşa təyinatları üzrə istifadə edən şəxslər tərəfindən əsaslı təmir və ya digər səbəblərdən uzun müddətə boşaldılmış binalardakı şüşələr sığortaya qəbul edilə bilərlər.

Binanın yuxarıdakı səbəblərdən uzun müddətə (60 gündən artıq) boşaldılması riskin dərəcəsini artıran haldır və tərəflər üçün şərtlərin 8-ci maddəsində nəzərdə tutulmuş nəticələrə səbəb olur. Sığortaçı həmçinin sığorta müqaviləsinə xitam vermədən yuxarıda qeyd olunmuş səbəblərdən binanın boşaldıldığı müddət üçün müqavilənin qüvvəsini dayandıra bilər.

9. Sındırılmış şüşələr bərpa edildikdən sonra:

9.1. Hər hansı yaxşılaşdırma olmadan əvəz edilmiş şüşələrə münasibətdə sığorta müqaviləsi qüvvədə qalır. Əvəz edilmiş şüşələrə görə onların bərpası tarixindən cari sığorta müddətinin sonunadək əlavə sığorta haqqı ödənilməklə sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği bərpa edilə bilər.

10. Şüşələrin sınması nəticəsində dəyən zərərə sığorta təminatı Sığortaçı ilə bağlanmış əmlakın yanğından və digər risklərdən əsas sığorta müqaviləsinə əlavə kimi verilir.

11. Sığorta müqaviləsində bu əlavə sığortaya münasibətdə başqa hal nəzərdə tutulmayıbsa, digər bütün hallarda yanğından və digər risklərdən sığorta qaydaları tətbiq olunur.

Qeyd-şərt 15

Kassadakı nəğd pulun sığortasının əlavə şərtləri (şərtlərin 5.3.2-ci maddəsinə)

1. Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarına əsasən bağlanmış sığorta müqaviləsi və bu əlavə şərtlər üzrə Sığortaçı yanğın, partlayış, ildırım, həmçinin silahlı qarət, oğurluq, təbii fəlakətlər, su kəmərləri və kanalizasiya sistemlərindən, isitmə və yanğınsöndürmə sistemlərindən olan su il zərərin vurulması nəticəsində Sığortalının kassalarında olan nəğd pulun və qiymətli kağızların zədələnməsinin, məhv olmasının və ya itməsinin səbəb olduğu zərərlərə təminat verir. Risklərin siyahısı genişləndirilə və məhdudlaşdırıla bilər.

2. Nəğd pulların qəbulu, verilməsi və müvəqqəti saxlanması üçün nəzərdə tutulan və Bankın tövsiyyələrinə əsasən təchiz olunmuş təcrid olunmuş yer kassa hesab edilir.

3. Sığortalanmış pulların, qiymətli kağızların və qiymətli əşyaların Sığortaçının kassasında olduqları müddət ərzində vurulmuş zərərlərə təminat verilir.

4. Bu sığorta aşağıdakılara aid edilmir:

4.1. nəğd pulların və digər qiymətli əşyaların daşınması və ya nəqli;

4.2. bu Sığortalıya məxsus olmayan, kassada saxlanılan nəğd pullar və digər qiymətli əşyalar;

4.3. ödəmə qabiliyyəti əlamətlərini itirmiş bank biletləri (banknotlar);

4.4. kassadan kənarda olan nəğd pullar və digər qiymətli əşyalar;

4.5. vəsaitlərin Sığortalının işçiləri tərəfindən oğurlanması;

4.6. nəğd pulların verilməsi və ya qəbulu zaman səhvlərlə bağlı kassirin məsuliyyəti;

4.7. nəğd pulların və qiymətli kağızların yox olması (çatışmaması);

4.8. Sığortalının depozitaridə saxlanan qiymətli kağızları.

5. Sığorta məbləğləri (Sığortaçının məsuliyyət hədləri) aşağıdakı məbləğlərdə müəyyən edilir:

5.1. nəğd pullar üçün – bu Sığortalıya xidmət göstərən Bank tərəfindən kassa əməliyyatlarının aparılması qaydasına uyğun olaraq müəyyən etdiyi limit çərçivəsində. Müəyyən edilmiş limitdən artıq məbləğlərin Sığortalının kassalarında ancaq əmək haqlarının, sosial sığorta üzrə müavinətlərin və təqaüdlərin ödənilməsi üçün bankda pulun alındığı gün də daxil olmaqla 3 iş günündən artıq saxlanmasına icazə verilmir.

5.2. qiymətli kağızlar və qiymətli əşyalar üçün – sığorta müqaviləsində göstərilmiş razılaşdırılmış məsuliyyət həddi çərçivəsində.

6. Mövcud olan normativ sənədlərə əsasən Sığortalının aşağıdakı öhdəlikləri var:

6.1. nəğd pulların qəbulubu və verilməsini kassa mədaxil və məxaric sənədlərinin qeydiyyatı Jurnalında qeyd olunan kassa mədaxil/məxaric orderləri həyata keçirmək, o cümlədən, hesablama texnikası vasitələrinin tətbiqi ilə;

6.2. nəğd pulların bütün daxil olmalarını və verilmələrini vərəqləri nömrələnmiş, tikilmiş və möhürlənmiş Kassa kitabında qeyd etmək;

6.3. Sığortalıda saxlanan bütün qiymətli kağızları nömrələnmiş, tikilmiş və möhürlənmiş və aşağıdakı rekvizitləri olan qiymətli kağızların qeydiyyatı Kitabında qeyd etmək**:**

Emitentin adı;

Qiymətli kağızın nominal dəyəri;

Alış dəyəri;

Nömrəsi, seriyası və s.

Alış və satış tarixləri

6.4. Bankın tövsiyyələrinə uyğun olaraq kassanı texniki mühafizə vasitələri ilə təchiz etmək, kassa otağında pulların təhlükəsizliyini təmin etmək;

6.5. nəğd pulları və qiymətli kağızları yanmayan, kombinasiya edilmiş və ya adi bağlanan və möhürlənən metal şkaflarda saxlamaq.

7. Qaydaların 17.2-ci maddəsinə əlavə olaraq Sığortalının aşağıdakı öhdəlikləri var:

7.1. qanunlarla, normativ aktlarla və ya sığorta müqaviləsi ilə nəzərdə tutulmuş əmlakın mühafizəsi və qiymətli əşyaların saxlanması qaydalarına riayət etmək;

7.2. iş vaxtından kənar vaxtlarda sığortalanmış yerlərin və saxlanma yerlərinin bağlanmasını və plombalanmasını təmin etmək, qiymətli əşyaların saxlandığı yerlərdə isə sığorta müqaviləsi və ya digər normativ aktlarlə bu yerlər üçün nəzərdə tutulmuş təhlükəsizlik dərəcəsini təmin etmək məqsədilə bütün tədbirləri görmək;

7.3. müqavilə ilə onların sığortası üzrə xüsusi təminat nəzərdə tutulubsa, qaydaların 2.3.1, 2.3.2 və 2.3.3-

cü maddələrində sadalanmış əmlakın siyahısını tutmaq və uçotunu aparmaq.

Yuxarıda qeyd olunmuş öhdəliklərin Sığortalı tərəfindən icra olunmadıqda, Sığortaçı sığorta ödənişi verməkdən imtina edə bilər.

8. Qaydaların 12-ci maddəsinə əlavə olaraq nəğd pul sığortalandıqda, aşağıdakılar riskin dərəcəsinin artması hesab edilir:

8.1. qiymətli əmlak üçün nəzərdə tutulmuş saxlanma yerlərinin ləğv edilməsi və ya daha az etibarlı yerlərlə əvəz edilməsi və ya saxlanma yerlərinin etibarlılıq dərəcələrinin azaldılması;

8.2. sığortalanmış binaların və tikililərin təmiri və ya yenidən təchiz edilməsi və həmçinin bilavasitə sığortalanmış binalara və tikililərə bitişik olan binaların və yerlərin təmiri və ya bu cür binalarda taxtabəndin və ya qaldırıcı mexanizmlərin quraşdırılması;

8.3. bilavasitə sığortalanmış yerlərə bitişik (yuxarıdan, aşağıdan və ya yandan) yerlərin uzun müddətə (60 gündən artıq) boşaldılması;

8.4. Sığortalının təsərrüfat fəaliyyətinin uzun müddətə (60 gündən artıq) dayandırılması;

8.5. bu cür kilidlərin açarları daha əvvəl itirildikdə, Sığortalının sığortalanmış yerlərdə və saxlanma yerlərində kilidlərin onlara bərabər kilidlərlə dərhal əvəz edilməsi üzrə tədbirlər görməməsi.

9. Qarət, oğurluq, yanğın və ya digər sığorta hadisəsi baş verdikdə Sığortalının aşağıdakı öhdəlikləri var:

9.1. hadisə haqqında dərhal müvafiq daxili işlər orqanlarına (polis, yanğınsöndürmə idarəsi və s.) məlumat vermək;

9.2. kassanın mühafizəsi (qarət halında) və ya əmlakın xilas edilməsi üzrə tədbirlər görmək;

9.3. müvafiq orqanların icazəsini aldıqdan sonra müəyyən edilmiş formada akt tərtib edərək kassa əməliyyatlarınadək nəğd pulların və digər qiymətli əşyaların yerində olmalarını yoxlamaq;

9.4. baş vermiş sığorta hadisəsi barədə Sığortaçıya dərhal yazılı şəkildə məlumat vermək.

10. Sığorta ödənişi aşağıdakı kimi hesablanır və ödənilir:

10.1. nəğd pulun sığortası üzrə:

10.1.1. tam məhv olma, itki halında – Kassa kitabından təsdiq olunmuş çıxarış əsasında nominal üzrə;

10.1.2. ödəmə qabiliyyətinin itirilməsinə səbəb olmuş qismən zərər halında – nominalla təhvil verilmiş zədələnmiş banknotlara görə Azərbaycan Respublikası Mərkəzi Bankının hesablama-kassa mərkəzindən aldığı təzminatla arasındakı fərq kimi. Azərbaycan Respublikası Mərkəzi Bankının xəzinədarlığının baş eksperti zədələnmiş kağız pulların əvəz edilməsinin qeyri-mümkünlüyü haqda qərar qəbul etdikdə, sığorta ödənişi onların tam məhvi halındakı kimi verilir.

10.2. qiymətləndirilməyən dövlət qiymətli kağızları üzrə - nominal dəyərləri əsasında.

10.3. qiymətləndirilməyən xüsusi müəssisə səhmləri üzrə - balans dəyərləri əsasında.

10.4. birja və ya xüsusi hərraclarda qiymətləndirilən, qiymətləri mütəmadi olaraq nəşr olunan digər qiymətli kağızlar üzrə - sığorta hadisəsinin baş verdiyi gün orta bazar dəyəri əsasında (alış və satış qiymətlərinin orta dəyəri).

10.5. nəcib metallar və digər qiymətli əşyalar üzrə - birja qiymətlərinin və ya ekspert qiymətləndirməsinin əsasında.

11. Sığorta ödənişi əmlak oğurluq, qarət baş verdiyi anda ancaq xüsusi saxlanma yerlərində (zirehli yerlər, seyflər, yanmayan şkaflar və s.) olduqda, verilir. Sığortaçı sığorta müqavilələrində bu cür

saxlanma yerlərinin təhlükəsizliyinin növünü və dərəcəsini göstərə, həmçinin sığorta müqaviləsi ilə onun sığortalanması nəzərdə tutulduqda, qiymətli əmlakın saxlanma yerlərində və ya xüsusi saxlanma yerlərində saxlanmasını nəzərdə tuta bilər.

12. Sığortalı riskin dərəcəsini artıran halların aradan qaldırılması üçün bütün mümkün tədbirləri görməli, bu mümkün olmadlqda isə - Sığortaçı ilə razılaşdıraraq əlavə təhlükəsizlik tədbirləri görməlidir. Yuxarıda qeyd olunmuş öhdəliklərin Sığortalı tərəfindən icra olunmaması Şərtlərin 8-ci maddəsində nəzərdə tutulmuş nəticələrə səbəb olur.

13. Sığorta müqaviləsində bu əlavə sığortaya münasibətdə başqa hal nəzərdə tutulmayıbsa, digər bütün hallarda yanğından və digər risklərdən sığortaı qaydaları tətbiq olunur.

Qeyd-şərt 16

İncəsənət əsərlərinin, sərgilərin sığortasının əlavə şərtləri (şərtlərin 5.3.3-cü maddəsinə)

1. Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarına əsasən bağlanmış sığorta müqaviləsi və bu əlavə şərtlər üzrə Sığortaçı sığorta müqaviləsində və ya ona əlavə olunmuş spesifikasiyada sadalanmış incəsənət əsərlərinin əmlak sığortası şərtlərinin 5.1.1.-ci maddəsində və həmçinin əlavə sığorta şərtlərində (1-9-cu qeyd-şərtlər) nəzərdə tutulmuş risklər nəticəsində zədələnməsinin, məhv olmasının və ya itməsinin səbəb olduğu zərərlərə təminat verir.

2. Rəssamlıq, heykəltaraşlıq, qrafika, dekorativ-tətbiqi və digər incəsənət növlərinin əsərləri, antikvar şeylər, sərgi eksponatları sığortaya qəbul edilirlər.

3. İncəsənət əsərlərinin istənilən təmirinin, bərpasının, restavrasiyasının, retuşlamasının birbaşa nəticəsi olan ziyana sığorta təminatı verilmir.

4. İncəsənət əsərlərinə həm stasionar saxlanma yerlərində, həm də daşınma və sərgiyə çıxarılma zamanı (incəsənət əsərinin muzeydəki daimi ekspozisiyadan (və ya saxlanma yerindən) götürüldüyü andan əvvəlki yerinə qaytarıldığı anadək – "mismardan mismara") təminat verilir.

5. Sığorta müqaviləsi üzrə sığorta məbləği tərəflərin razılığına əsasən müəyyən edilir. Sığorta məbləğinin maksimal həddi incəsənət əsərlərinin sığorta (həqiqi) dəyərini aşmamalıdır. İncəsənət əsərinin düzgün dəyərinin müəyyən etmək üçün Sığortaçı ekspert-qiymətləndiriciləri cəlb edə bilər.

6. Bağlanmış müqavilə üzrə Sığortaçı müqavilədə göstərilmiş sığorta məbləği həddində məsuliyyət daşıyır. Bir neçə sığorta hadisəsi üzrə ödənişlərin ümumi cəmi sığorta məbləğini aşa bilməz.

7. Sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa sığorta məbləğinin 10%-dən artıq olmayan şərtli və ya şərtsiz azadolma məbləği (zərərin ödənilməyən hissəsi) müəyyən edilir.

8. Sığorta müqaviləsinin bağlanması üçün Sığortalı aşağıdakıları Sığortaçıya təqdim edir:

8.1. müqavilənin bağlanması üçün zəruri olan məlumatların, o cümlədən, riskin dərəcəsinə təsir edən halların göstərildiyi ərizə,

8.2. spesifikasiya (adı, işin müəllifi və hər bir predmetin dəyəri göstərilməklə incəsənət əsərlərinin siyahısı).

8.3. Sığortalının kontragentləri ilə müqavilələrinin surətləri (incəsənət əsərlərinin digər ekspozisiyalarda nümayiş etdirilməsi və ya digər məqsədlər üçün verilməsi halında) və həmçinin Sığortaçı tələb etdiyi, sığorta müqaviləsinin bağlanması üçün zəruri olan digər sənədlər.

9. Əmlak sığortası qaydalarının təminatdan istisnalara əlavə olaraq incəsənət əsərlərinə görə sığorta ödənişi aşağıdakı hallarda verilmir:

9.1. mümkün zərərin qarşısının alınması və ya təsirinin azaldılası üçün Sığortalı ağlabatan və mümkün

tədirləri görmədikdə;

9.2. zərər incəsənət əsərlərinin təbii köhnəlməsi ilə bağlı olduqda;

9.3. zərər incəsənət əsərlərinin mühafizə olunmayan nəqliyyat vasitəsindən oğurlanması ilə bağlı olduqda.

Qeyd-şərt 17

Soyuducu kameralardakı əmlakın sığortasının əlavə şərtləri (şərtlərin 5.3.4-cü maddəsinə)

1. Bu əlavə sığorta şərtlərinə əsasən Sığortaçı müqavilədə göstərilmiş soyuducu qurğuların qəfil və/və ya gözlənilməz zədələnməsi, məhv olması və ya sıradan çıxması nəticəsində sığortalanmış əmlakın zədələnməsinə, məhv olmasına və ya korlanmasına təminat verilir.

2. Bu əlavə sığorta şərtlərinə əsasən aşağıdakılar sığortalana bilər:

2.1. müəyyən temperatur rejimində soyuducu qurğularda saxlanılmalı dondurulmuş, soyudulmuş və ya təzə ərzaq məhsulları;

2.2. müəyyən temperatur və iqlim rejimində soyuducu qurğularda saxlanılan digər mallar və ya məhsullar (sığortalanmış əmlakın "idarə olunan atmosfer"li kameralarda saxlanması).

Həm daimi saxlama temperaturunun, həm də rütubət, təzyiq, adi havadan fərqlənən qaz tərkibli qarışıq, bu qarışıqdakı tozların və ya digər bərk komponentlərin maksimal norması və ya digər analoji parametrlər kimi hava-qaz qarışığının hər hansı daimi parametrlərinin təmin olunduğu şəraitdə əmlakın uzun müddət (bir aydan artıq) saxlanmasının həyata keçirildiyi və onlarda saxlanan əmlakın qoyulması və ya götürülməsi üçün saxlanma rejiminin pozulmasına imkan verməyən ciddi müəyyən olunmuş qrafik üzrə açılan yerlər "idarə olunan atmosfer"li kameralar hesab edilir.

Bu cür əmlak sığortalanarkən Sığortalı sığorta müqaviləsi bağlananadək bu malların xüsusi temperatur və iqlim rejimində saxlanması zərurətini doğuran səbəblər və temperatur və iqlim rejiminin pozulması nəticəsində onların zədələnməsi və ya korlanması ilə bağlı spesifik risklər haqqında Sığortaçıya məlumat verməlidir.

3. Soyuducu kameralarda olan soyuducu avadanlığa və ya digər köməkçi avadanlığa sığorta təminatı verilmir.

4. Ancaq dövlət və/və ya avtonom elektrik şəbəkəsinin zədələnməsinin və ya məhv olmasının səbəb olduğu soyuducu qurğuya elektrik enerjisinin verilməsinin qəfil dayandırılması nəticəsində dəymiş zərərlərə sığorta təminatı verilir.

5. Sığortalanmış əmlakın saxlandığı soyuducu qurğu mülkiyyət hüququna əsasən Sığortalıya məxsus olduqda, Sığortaçı bu əlavə şərtlər çərçivəsində sığorta təminatının verilməsinin ilkin şərti kimi eyni zamanda yuxarıda qeyd olunmuş avadanlığa dair maşın və avadanlığın sınmalardan sığortası müqaviləsinin bağlanmasını tələb edə bilər.

6. Hər bir halda aşağıdakıların nəticəsində baş vermiş zərərlər ödənilmir:

6.1. keyfiyyətinə, növünə və komplektləşdirilməsinə görə tələblərə cavab verməyən malın Sığortalı tərəfindən qəbul edilməsi;

6.2. daimi temperatur rejimində saxlanılmaqla bunların qarşısının alınması mümkün olmadıqda, sığortalanmış əmlakın oturması, quruması, daxili çatışmazlıqları və nöqsanları, onların korlanması və ya çürüməsi;

6.3. qeyri-düzgün saxlama, yalnış temperatur rejiminin tətbiqi, həmçinin soyuducularının kifayət qədər ventilyasiyasının olmaması və ya qablaşdırmanın zədələnməsi;

6.4. bu cür təmir Sığortaçının ilkin razılığı olmadan aparılırsa, sığortalanmış soyuducu qurğunun müvəqqəti təmirinin həyata keçirilməsi;

6.5. elektrik enerjisinin verilməsinin dayanması ilə bağlı olmayan soyuducu qurğuların sınmaları və ya çatışmazlıqları və /və ya əlavələrin və ya tənzimləyici cihazların xarab olması;

6.6. 36 saatdan az müddətə elektrik enerjisinin verilməsinin dayandırılması;

6.7. soyuducu kameralara xidmət göstərən işçilərin səhvləri və ya ehtiyatsızlığı.

7. Əmlak ancaq sığorta müqaviləsində göstərilmiş (sığorta təminatının ərazisi) yerlərdə (soyuducu kameralarda) sığortalanmış hesab edilir.

8. Bu əlavə şərtlərə əsasən sığorta müqaviləsi bağlandıqda, iddiasız müddət müəyyən edilir.

8.1. İddiasız müddət – soyuducu kameranın bu müddət ərzində daimi bağlı saxlanması şərtilə, soyuducu aqreqatların dayanmasından və ya sıradan çıxmasından sonra soyuducu kameralarda saxlanılan əmlakın korlanmamalı olduğu müddətdir. Sığortalanmı əmlakın ayrı-ayrı növləri üzrə iddiasız müddət sığorta üçün ərizədə və müqavilədə göstərilməlidir.

8.2. İddiasız müddət bu əlavə şərtlərin müddəalarına əsasən Sığortaçının sığorta ödənişi vermək öhdəliyinə səbəb ola biləcək hadisənin baş verdiyi tarixdən hesablanır.

9. Sığortalının aşağıdakı öhdəlikləri var:

9.1. Uçot sənədlərində malların saxlanmadan götürüldüyü və ya saxlanmaya verildiyi tarixi, onların adlarını, saylarını və dəyərləri göstərilməklə soyuducu kameralarda saxlanan malların uçotunu aparmaq. Sığorta hadisəsi baş verdikdə, soyuducu kameralarda malların olması barədə müvafiq uçot məlumatlarını Sığortaçıya vermək;

9.2. Kameralardakı soyutma temperaturunu və həmçinin digər zəruri məlumatları göstərməklə hər bir soyuducu kameranın iş rejiminin jurnalını tutmaq;

9.3. Onun istehsalçısının tövsiyyələrinə, onun istismarının ümumqəbul olunmuş qaydalarına və dövlət inspeksiya orqanlarının və ya oxşar orqanların göstərişlərinə əsasən soyuducu qurğunun normal işləməsini təmin edilməsi üzrə bütün zəruri tədbirləri görmək;

9.4. Öz hesabına sığortalanmış əmlaka dəyə biləcək zərərin qarşısınn alınması üzrə bütün zəruri və məqsədəuyğun tədbirləri görmək və həmçinin bu məqsədlə Sığortaçının verdiyi göstərişlərini və tövsiyyələrini yerinə yetirmək;

9.5. Sığortalanmış əmlaka baxış keçirmək və sığortaya qəbul edilmiş riskin dərəcəsinin qiymətləndirilməsi üçün Sığortaçının nümayəndələrinə sığorta ərazisinə daxil ola bilməsini və həmçinin sığortalanmış malların uçotu üzrə sənədlərlə və soyuducu kameraların iş rejimi jurnalları tanış ola bilməsini təmin etməlidir.

10. Sığortalının bu əlavə şərtlərin 9-cu maddəsində göstərilmiş öhdəlikləri icra etməməsi sığorta ödənişinin verilməsindən imtina üçün əsasdır.

11. Sığortaçının verəcəyi sığorta ödənişinin məbləği hesablanarkən, sığorta ödənişinin məbləğinə təsir edə biləcək bütün hallar nəzərə alınır, məsələn: sığorta hadisəsi nəticəsində soyuducu kameralarda saxlanmanın vaxtından əvvəl dayandırılması ilə bağlı xərclərə qənaət edilməsi, zədələnmiş sığortalanmış əmlakın realizasiyasından əldə edilmiş gəlir və s..

Qeyd-şərt 18

“İlkin (maksimal) zərər ” üzrə əmlakın sığortasının əlavə şərtləri (şərtlərin 5.4.1-ci maddəsinə)

Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarına əsasən bağlanmış sığorta müqaviləsi və bu əlavə şərtlər üzrə Sığortaçı əmlakı "ilkin (maksimal) zərər" şərti ilə sığortaya qəbul edir. Sığortaçının məsuliyyət həddi sığorta müqaviləsində sığortalanmış əmlakın ümumi dəyərindən və sığorta müddəti ərzində sığorta hadisələrinin sayından asılı olmayaraq, bir hal (hadisə) üzrə müəyyən edilir.

Natamam sığorta halında sığorta təminatı zərər həcmində, lakin sığorta məbləğindən (müqavilə üzrə məsuliyyət həddindən) artıq olmamaqla ödənilir. Zərərin sığorta təminatı verilməyən hissəsi Sığortalının öhdəsində qalır və onun tərəfindən müstəqil şəkildə ödənililr.

Sığorta hadisəsi baş verdikdə, Sığortalı itirilmiş və ya zədələnmiş əmlakın müqavilədə göstərilmiş sığorta ərazisində olmasını və bunun inventar və anbar uçotu sənədlərində qeyd olunduğunu təsdiq etməlidir.

Qeyd-şərt 19

"Müəyyən edilmiş dəyər" üzrə əmlakın sığortasının əlavə şərtləri (şərtlərin 5.4.2-ci maddəsinə)

Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarına əsasən bağlanmış sığorta müqaviləsi və bu əlavə şərtlər üzrə Sığortaçı əmlakı Sığortalının sığorta müqaviləsi bağlanarkən göstərdiyi (bazar dəyərindən artıq olmamaqla) "müəyyən edilmiş dəyər" üzrə sığortaya qəbul edir.

Bununla belə, tam fiziki və ya konstruktiv məhv olma halında əmlak üzrə sığorta ödənişi sığorta hadisəsi günü analoji əmlakın alış qəymətindən artıq olmamaqla, sığorta məbləği həddində, zədələnmə halında isə əmlakın hər bir vahidi üzrə müəyyən edilmiş dəyərdən artıq olmamaqla, köhnəlmə nəzərə alınmadan əmlakın bərpası (təmiri) dəyəri həcmində ödənilir.

Qeyd-şərt 20

"İndeksasiya edilmiş yeni dəyər" üzrə əmlakın sığortasının əlavə şərtləri (inflyasiya üzrə qeyd-şərti) (şərtlərin 5.4.3-cü maddəsinə)

Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarına əsasən bağlanmış sığorta müqaviləsi və bu əlavə şərtlər üzrə Sığortaçı əmlakı (köhnəlməsi 20%-dən yüksək olmayan əmlakı) avtomatik şəkildə sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində indeksasiya olunan yeni dəyər üzrə sığortaya qəbul edir.

Sığorta haqqı məbləği indeksasiya olunan sığorta məbləğlərindən çıxış edərək hər ay yenidən hesablanır, sığorta haqqı üzrə qarşılıqlı hesablaşmalar isə rüblük həyata keçirilir.

Sığorta zərəri əmlakın sığorta hadisəsi gününə indeksasiya olunmuş yeni dəyərindən (köhnəlmə nəzərə alınmadan) çıxış edərək müəyyən edilir.

Qeyd-şərt 21

"Yerüstü daşımalar"

1. Sığorta predmeti:

Hazırki müqavilə üzrə qanuna zidd olmayan, siyahısı Sığortalı tərəfindən Sığortaçıya təqdim edilən, sahibliyi Sığortalıya və ya başqalarına məxsus olan, lakin Sığortalının cavabdeh olduğu və/ və yaxud Sığortalının məsuliyyət daşıdığı mal və əmtəələr sığorta predmeti hesab olunur.

2. Sığorta təminatına aid istisnalar:

Hazırki sığorta müqaviləsi ilə sığortalana bilməz:

A. Hesablar, çeklər, əqdlər, borc haqqında bildiriş, qeydlər, əmanətlər, valyuta, pul, sikkə və markalar;

B. Zinət əşyaları, qiymətli daşlar, incəsənət əsərləri, külçə, qiymətli metallar və onlardan hazırlanan sikkələr;

C. Poçt və ya paket ilə göndərilmiş əmlak.

3. Sığortalanan risklər:

Sığorta təminatı yerüstü daşınma zamanı bu Qaydalarda qeyd olunan və Müqavilədə istisna edilməyən bütün növ əmlak risklərini əhatə edir.

Qeyd-şərt 22

Gözlənilmədən baş vermiş hadisələr

Sığorta təminatı:
Sığorta təminatı xarici səbəblərdən meydana gələn, bilərəkdən baş verməyən, Sığorta Müqaviləsi, onun tərkib hissəsi olan "Əmlakın yanğın və digər əlavə risklərdən sığortası Qaydaları" və hazırkı Qeyd-şərt ilə istisna edilməyən sığorta predmetinə dəyən bütün növ fiziki məhv və ya zərərləri əhatə edir.

ÜMUMİ İSTİSNALAR:

Sığortaçı aşağıdakı hallarda məsuliyyət daşımır:

1) Əmlaka aşağıdakıların birbaşa və ya dolayı təsiri nəticəsində dəyən hər hansı itki və ziyan:

a) İstənilən nüvə silahı;

b) İstənilən nüvə yanacağı və ya nüvə tullantılarının parçalanması və ya birləşməsi nəticəsində əmələ gələn ionlaşan radiasiya və ya çirklənmə;

c) Radioaktiv, toksik, partlayıcı və ya digər partlayıcı nüvə tərkibli və nüvə komponentli təhlükəli əmlaklar;

d) Müharibə (elan olunub olunmamasından asılı olmayaraq), vətəndaş müharibəsi, işğal, xarici düşmənlərin hərəkətləri və digər hərbi əməliyyatlar;

e) Qiyam, kütləvi iğtişaşlar və bu kimi digər mülki iğtişaşlar, hərbi qiyam, üsyan, inqilab, hərbi ya zor qüvvəsi, hərbi hüququn və ya mühasirə vəziyyətinin tətbiqini müəyyənləşdirən maddi hüquq, mühasirə və ya digər səbəb və ya hadisələr;
f) Qiyam, tətil, lokaut və ya digər əmək iğtişaşları;
g) Hər hansı təşkilat adından və ya onunla bağlı olan şəxs və ya şəxslər tərəfindən törədilən terror əməliyyatları;

Bu istisnada terror sözü siyasi məqsədlə zor tətbiqi mənasını daşıyır və kütlə, yaxud kütlənin hər hansı bir hissəsini qorxutmaq məqsədi ilə zor tətbiqini nəzərdə tutur.

h) Sındırmaqla və ya hər hansı güc və zor tətbiq etməklə əmlaka daxil olma və çıxma nəticəsində oğurluq və ya oğurluğa cəhd riskləri istisna olmaqla Üçüncü şəxslərin qərəzli və qanuna zidd hərəkətləri; lakin aşağıdakılar nəticəsində Sındırmaqla oğurluq və ya oğurluğa cəhd riskləri sığorta təminatı ilə əhatə olunmur:

- Sığortalının işçisi və ya onun xidmətində olan hər hansı bir şəxs tərəfindən baş tutarsa;
- Əmlakda qanuni olaraq olan hər hansı bir şəxs tərəfindən baş tutarsa;
- Əmlak istifadəsiz halda olarsa;

i) Dövlətin (de-yure və ya de-fakto), bələdiyyə və ölkənin və ya əmlakın yerləşdiyi ərazinin yerli özünüidarəetmə orqanlarının sərəncamına əsasən əmlakın müsadirəsi, rekvizisiyası, milliləşdirilməsi, məhvi və ya zədələnməsinin; karantin və ya gömrük nizamnaməsinə əsasən əmlakın zəbt və ya məhv edilməsinin bir-başa və ya dolayı nəticəsində əmlaka dəyən itki və ziyan;

j) Zəhərləyici və ya çirkləndirici maddələrin birbaşa və ya dolayı, bilavasitə və ya məsafəli, tam və ya qismən faktiki, gümanlı və ya təhdidli şəkildə axıdılması və ya yayılması nəticəsində sığortalanmış hər hansı fiziki məhv və ya zərərin meydana gəlməsi;

k) Sığortalının və ya onun işçilərinin, agentlərinin, və ya digər sığortalanmış əmlakı etibar olunan əməkdaşlarının hər hansı dələduzluğu və ya dürüstsüzlüyü səbəbindən əmlaka dəyən itki və ya ziyan; sığortalının könüllü şəkildə təşviq olduğu qeyri-qanuni əməliyyat, hiylə və ya qərəzli çağırışlarda iştirakı nəticəsində dəymiş itki və ya zərər; əmlakın hər hansı izah edilə bilinməyən səbəbdən itkisi, dağılması və ya ona zərər, müəmmalı yox olması və ya əskikliyi;

l) Elektron məlumatlarına dəyən maqnetik və ya elektrik zədə, elektron məlumatların, qeydlərin və proqramların kompüter sistemlərindən pozulması, silinməsi və ya zədələnməsi;

m) Boş və ya istifadə olunmayan əmlak(lar)ın santexnika, isitmə və ya yanğından mühafizə sisteminin donması;

n) Tikililərin yıxılması və ya dağılması;

o) Çirklənmə, lakin aşağıdakılar səbəbindən dəyən zərərlər xüsusi istisna olmadığı təqdirdə təmin olunur:

İ) yanğın, ildırım vurması, partlayış, təyyarə və ya digər hava aparatlarının düşməsi, üsyan, mülki iğtişaş, tətil etmiş işçilər, əmək iğtişaşlarının iştirakçıları, qərəzli şəxslər, zəlzələ, fırtına, sel, su boruları və ya su çənlərindən axan su, yerüstü nəqliyyat vasitələrinin və ya heyvanların vurması, oğurluq və ya oğurluğa cəhd nəticəsində baş verən çirklənmə;
İİ) Bənd İ-də göstərilən hər hansı bir risk nəticəsində meydana gələn Çirklənmə;

Sığortaçı bu istisna müddəalarına əsasən hər hansı bir itki və ya zərərin bu Müqavilə ilə əhatə olunmadığını sübut etdiyi təqdirdə, bu itki və ya zərərin sığorta təminatı ilə əhatə olunması sübut etmə məsuliyyəti Sığortalının üzərinə düşür.

p) Tikinti, quraşdırma işləri, yenidənqurma və ya təmir işləri zamanı sığortalanmış əmlaklara dəyən zərər;

2) Aşağıdakı əmlakların itkisi, dağılması və ya onlara zərər:

a) Pul, hesab, çek, valyuta, əqd, borclar haqqında bildiriş, qeydlər, yaxud qiymətli kağızlar;

b) Oğurluq, toz və ya hər hansı hava şəraitinin (ildırım riskindən başqa) açıqda saxlanılan daşınar və/və ya şəxsi əmlaka vurduğu zərər;

c) Motorlu nəqliyyat vasitələri, yolda istifadə üçün lisenziyalı nəqliyyat vasitələri (ləvazimatları daxil olmaqla), karvan, dəmiryol lokomotivləri və/və ya lokomotiv vaqonlar, su və ya hava nəqliyyat vasitələri;

d) Sığortalanmış əmlakın birbaşa testi, təmiri, düzəlişi və servis xidmətlərin aparılması nəticəsində dəyən və ya yaranan zərər; bu istisna bu bölmədə göstərilən hadisələr nəticəsində digər əmlaklara dəymiş zərərlərə dair tətbiq edilmir.

e) Mal-qara, bar verən bitkilər, taxta-şalbanlar, qazonlar, kollara, üzərində eksperiment aparılan heyvanlar istisna olmaqla, digər heyvanlar;

f) Zinət əşyaları, qiymətli daşlar, qiymətli metallar, külçə, xəz, xəzlə bəzədilmiş əşyalar;

g) Sığortaçıya haqqında əvvəlcədən yazılı bildiriş verilməyən və Sığortaçıdan yazılı təsdiq alınmayan markalar, sənədlər, əlyazmalar, kitablar, kompüter sistem qeydləri, qəliblər, modellər, planlar, rəsmlər, dizaynlar, nadir əşyalar, antik əşyalar, nadir kitablar və ya incəsənət əsərləri;

h) Torpaq, torpaq dəyəri, ekskavasiyalar, bəndlər, doklar, körpülər, yürüş yolları, terraslar, kanallar, yollar və digər döşənmiş səthlər;

i) İnşaatda, quraşdırmada və təmirdə olan tikililər;

j) Peyklər, kosmik gəmilər, raketlər və onların mühüm hissələri də daxil olmaqla, lakin bunlarla məhdudlaşmayaraq kosmik risklər;

k) Şərti satış, etibarnamə, hissəli ödəniş və ya digər güzəştli ödəniş planı ilə Sığortalı tərəfindən satılan əmlak müştərilərə çatdırıldıqdan sonra;

l) Elektrik və ya telekommunikasiya, ötürücü və ya paylama xətləri və boruları;

m) Zirzəminin ən son mərtəbəsindən aşağıda və ya zirzəmi olmadıqda, torpaq səthindən aşağıda yerləşən avadanlıqlar və ya buxar qazanları;

n) Yeraltı borular, bacalar və ya drenaj boruları;

o) Digər sığorta müqaviləsi ilə sığorta təminatı ilə əhatə olunan və daha spesifik təsvir edilən əmlak;

p) Qiymətli kağızlarda, sənədlərdə və qeydlərdə mövcud olan məlumatların (elektron və ya maqnit məlumat daşıyıcıların) tədqiqi, yerinin dəyişdirilməsi və bərpası üçün lazım olan;

q) Nüvə enerji riski və atom parçalanması və ya radioaktiv güc daşıyan istənilən hərbi silah;

r) Partlayıcılar;

s) İstənilən elektrik avadanlığına, aparatlara və ya elektrik qurğusunun hər hansı bir hissəsinə həddindən çox istifadə olunduğu, qısa-qapanma, öz-özünə qızma, cərəyan (induksiya) dəyişikliyi, qığılcım nəticəsində dəyən zərərlər (ildırım daxil olmaqla);
Bu istisna yalnız riskə məruz qalmış avadanlıqlara, aparatlara və/və ya elektrik qurğusunun müəyyən hissəsinə aiddir və onların zərərə məruz qalması nəticəsində meydana gəlmiş yanğın nəticəsində zərər dəyən digər avadanlıqlar, aparatlar və ya elektrik qurğularına şamil edilmir.

t) İtki, dağılma və ya zərərin baş verdiyi anda hər hansı bir su nəqliyyatı vasitələrinin sığorta növü və ya növləri ilə Sığortalanmış və ya sığortalanacaq əmlak;

3) Aşağıdakılar başqa, ləngimə, bazarın itkisi və ya hər hansı bir dolayı zərər;
i) Sığorta təminatı ilə əhatə olunursa, icarə itkisi;
ii) Sığorta təminatı ilə əhatə olunursa Hazırkı Qeyd-şərtin B Bölməsi

4) Öz-özünə kömürləşmə, fermentasiya, çürümə, tədrici xarab olma, daxili qüsur, istehsal qüsurları, mikroorqanizmlərin vurduğu zərər - kif, mamır və göbələk daxil olmaqla lakin bunlarla məhdudlaşmayaraq, ətraf mühitin çirklənməsi, təbii xarab olma, temperatur və nəmişlik dəyişiklikləri, çəki azalması, paslanma, eroziya, rəngin, strukturun və qoxunun və/və ya digər təbii aspektlərin dəyişməsi;

“Paşa Sığorta” ASC

Əmlakın yanğın və digər əlavə risklərdən sığortası üzrə tarif dərəcələrinin əsaslandırılması

Tarif dərəcələri əsaslandırılarkən əvvəlcə netto-dərəcələr hesablanır. Netto-dərəcələrin hesablanmasında aşağıdakı məlumatlardan istifadə edilir:

1) Sığorta hadisəsinin baş verməsi ehtimalı (q);
2) Bir sığorta müqaviləsi üzrə orta sığorta məbləği (So);
3) Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi (Sö);
4) Bağlanılacaq sığorta müqavilələrinin sayı (n).

Sığorta olunan risk üzrə netto-dərəcə (Tn) üçün aşağıdakı düstur doğrudur:

$$T_n = T_ə + T_r$$

Tə və ***Tr*** ilə müvafiq olaraq netto-dərəcənin əsas hissəsini və risk üstəliyini işarə edək. Netto- dərəcənin əsas hissəsi 100 manat sığorta məbləğinə uyğun olaraq aşağıdakı düsturla hesablanır:

$$T_ə = 100 \cdot q \cdot \frac{S_ö}{S_0}$$

Risk üstəliyi aşağıdakı düsturla hesablanır:

$$T_r = 1.2 \cdot T_{ə.} \cdot \alpha(\gamma) \cdot \sqrt{\frac{1-q}{nq}}$$

Tarif dərəcəsinin strukturu: netto-dərəcə - 60%, yüklənmə (f) - 40%. O cümlədən işlərin aparılması xərcləri -25%, tarif mənfəəti- 15%.Tarif strukturunda komissiya xərcləri maksimum 40% təşkil edə bilər .
Ümumi qeyd olunmuş yüklənmə həddindən çox olmamaq şərti ilə işlərin aparılması xərci və tarif mənfəətinin pay bölgüsü dəyişə bilər.

Brutto-dərəcəni T_b ilə işarə edək. Onda brutto-dərəcənin hesablanması düsturuna əsasən

$$T_b = \frac{T_n}{1-f} .$$

Əmlak sığortası üzrə tariflərin hesablanması:

Risk üstəliyini hesablamaq üçün təminat ehtimalını 0,95 götürək. Bu halda həmin ehtimala uyğun əmsal α(γ) =1,645 olur. α(γ) – nın γ – dan (γ – təhlükəsizliyin təminatı adlanır) asılı olan qiymətləri aşağıdakı cədvəldən götürülür:

γ	0.84	0.90	0.95	0.98	0.9986
α(γ)	1	1.3	1.645	2,0	3,0

Sığorta müddəti 1 il təşkil edir.***Cədvəl 1: Baza tariflərinin hesablanması***

Sığorta riskləri	Bağlanılacaq sığorta müqavilələrinin sayı (n)	Sığorta hadisəsinin baş verməsi ehtimalı (q)	Bir sığorta müqaviləsi üzrə orta sığorta məbləği (Sö)	Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi (Sö)	Netto-dərəcənin əsas hissəsi (Tə)	Risk üstəliyi (Tr)	Netto dərəcə (Tn) , %	Brutto-dərəcə (Tb) , %
Yanğın	1000	0,002882	1.200	60.000	0,014	0,017	0,031	0,052
Təbii fəlakətlər	1000	0,001729	1.200	55.000	0,008	0,012	0,020	0,033
Üçüncü şəxslərin qanuna zidd əməlləri	1000	0,00124	1.200	5.000	0,001	0,001	0,001	0,002
Su borularından axan suyun, buxarın və mayelərin vurduğu zərər	1000	0,002478	1.200	31.000	0,006	0,008	0,014	0,024
Nəqliyyat vasitələrinin vurması	1000	0,00027	1.200	25.000	0,001	0,002	0,003	0,004
Sığorta hadisəsi nəticəsində binanın uçması	1000	0,000702	1.200	20.000	0,001	0,003	0,004	0,007
Tüstü ilə zərərin vurulması	1000	0,002	1.200	10.000	0,002	0,002	0,004	0,007
Səs zərbəsi	1000	0,000609	1.200	20.000	0,001	0,003	0,004	0,006
Üçüncü şəxslərə qarşı mülki məsuliyyət	1000	0,003066	1.200	10.000	0,003	0,003	0,005	0,009
Buxar qazanlarının, qaz xətlərinin, maşınların, aparatların və digər analoji qurğuların partlaması	1000	0,0015	1.200	30.000	0,004	0,006	0,010	0,016

Tarif dərəcələri binaların yerləşdiyi ərazidən, tikildiyi inşaat materiallarından, təmirindən, necə qorunmasından, hansı zəlzələ zonasında yerləşməsindən, yanğına qarşı mühafizə və digər sistemin olub- olmamasından və ya hansı səviyyədə olmasından, digər binaya bitişik olmasından və s. amillərdən asılı olaraq diferensiallaşdırılır. Differensiallaşma əmsalları Baza sığorta tarifinə tətbiq olunur.

Cədvəl 2: Risk amillərinin cədvəli

Tarifə təsir edən risk faktorları	Differensiallaşma əmsalları	
	azaldan	artan
Sığorta ərazisi	0,75 - 0,99	1 - 1,2
Yanğından mühafizə sisteminin mövcudluğu və növü	0,4 - 0,99	1 - 1,4
Su, kanalizasiya və istilik sistemlərinin mövcudluğu və vəziyyəti	0,8 - 0,99	1 - 1,2
Siqnalizasiya sisteminin mövcudluğu və növü	0,8 - 0,99	1 - 1,15
Tikilinin yaşı	0,6 - 0,99	1 - 1,4
Əmlakın istismarınını xüsusiyyəti	0,6 - 0,99	1 - 1,4
Sığortalanmış əmlakın növü (kateqoriyası) və xüsusiyyətləri	0,8 - 0,99	1 - 1,3
Tikilinin materialı	0,8 - 0,99	1 - 1,2
Azadolmanın tətbiqi	0,2 - 0,99	-
Sığorta haqqının hissə-hissə ödənilməsi	-	1 - 1,2
Zərər tarixçəsi	0,8 - 0,99	1 - 1,9
Dondurucu kameralardakı əmlakın sığortası	-	1 - 1,25
İşin dayanması	-	1 - 1,25
Tullantıların təmizlənməsi	-	1 - 1,25
Binaların şüşə elementlərinin sığortası	-	1 - 1,25
Kassadakı nağd pul	-	1 - 1,25
İncəsənət əsərlərinin, sərgilərin sığortasının əlavə şərtləri	-	1 - 1,25
Daşınmaz əmlakın icbari sığortası müqaviləsinin mövcudluğu	0,6 - 0,99	-

Sığorta müqaviləsinin müddəti 1 ildən az olduqda, aşağıdakı cədvəldə göstərilən əmsallar Baza sığorta tarifinə tətbiq edilir.

Cədvəl 3

Sığorta müqaviləsinin müddəti (aylarla)										
1	**2**	**3**	**4**	**5**	**6**	**7**	**8**	**9**	**10**	**11**
Sığorta haqqı (illik SH-nın % - i)										
20%	30%	40%	50%	60%	70%	75%	80%	85%	90%	95%

Yekun tarif dərəcəsi 0,00001%-10% aralığında dəyişir.